REGION PRESS

№06 (181) 27.03.2015

Qəzet 2008-ci il martın 15-dən çıxır

İctimai qəzet

“რეგიონ პრესი” საზოგადოებრივი გაზეთი

www.amm.ge

# Prezident və Baş nazir azərbaycanlıları Novruz bayramı münasibətilə təbrik etmək üçün Marneulidə oldular



*Martın 21 də Marneulidə yerli hakimiyyətin təşkilatçılığı ilə təntənəli bayram tədbiri keçirildi.*

*(Davamı səh. 10-da)*

## Gürcüstan Haaqa Məhkəməsinin Arbitraj Palatasının 117-ci daimi üzvüdür

Haaqa Məhkəməsinin bəyanatında qeyd olunur ki, Gürcüstan beynəlxalq mübahisələrin dinc yolla həllinə dair 1907-ci il tarixli konvensiyaya qoşulduqdan sonra Arbitraj Palatasının üzvü olmuşdur. Gürcüstan tərəfi yuxarıda adı çəkilən konvensiyaya qoşulmaq niyyətini 2015-ci il yanvarın 21-də Hollandiya XİN-ə bildirmişdir. “Bununla əlaqədar Gürcüstan 2015-ci il martın 22-dən Haaqa Məhkəməsinin Arbitraj Palatasının 117-ci daimi üzvü olmuşdur.



Arbitraj Palatası mübahisələrin sülh yolu ilə həllini və bununla da onun işinə dəstək göstərilməsini alqışlayır”,- deyə Haaqa Məhkəməsinin bəyanatında bildirilir.

## Rusiya ilə aviareyslər bərpa olunur

***İki ölkə arasında aviareyslərə dair danışıqlar 2014-cü ilin dekabrından başlayıb.***



Gürcüstanın "Airzena" Hava Şirkəti yaxın günlərdə Rusiyanın 3 şəhərinə - Sankt Peterburq, Samara və Vladiqafqaza uçuş reysləri həyata keçirməyə başlayacaq.

Bu haqda şirkətin direktoru İase Zautaşvili bildirib. Onun sözlərinə görə, hazırda Rusiya tərəfi ilə razılaşmaya dair danışıqlar aparılır və yekun qərar yaxın zamanda qəbul ediləcək. Direktor deyib ki, bundan sonra uçuş qrafiki və tarif təyin olunacaq. Rusiya ilə Gürcüstan arasında aviareyslərin bərpası ilə bağlı danışıqlar 2014-cü ilin dekabrından başlayıb. Xatırladaq ki, 2008-ci ilin avqustunda baş vermiş hadisələrdən sonra iki ölkə arasında hava nəqliyyatı sahəsində əlaqələr kəsilib.


## Novruz bayramınız mübarək!



***"Qafqaz İnkişaf Bankı - Gürcüstan" SC-nin kollektivi Sizi Bahar bayramı - Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, cansağlığı, xoş güzəran, ailə sevinci və bahar əhval-ruhiyyəli ömür arzulayır!***

CDB

კავკასიის განვითარების ბანკი - საქართველო

QAFQAZ İNKİŞAF BANKI - GÜRCÜSTAN

CAUCASUS DEVELOPMENT BANK - GEORGIA



Tbilisi şəhəri, Xetaqurov küçəsi, 36

tel: (+99532) 42 72 72; www.CDB.ge


*"Qafqaz İnkişaf Bankı - Gürcüstan" SC-nin Direktorlar Şurasının sədri Ravil Qarayevlə müsahibəni 7-ci səhifəmizdə oxuya bilərsiniz.*


**31 MART Azərbaycanlıların soyqırım günüdür**



Səh.2-də

**Azərbaycan ozan-aşıq sənəti gürcü mənbələrində**

Almaz YURDSEVƏR



Səh.5-də

**TANAP dünyada ən mühüm strateji kəmərlərdən biri olacaq**



Səh.8-də

**Şairlər günündə yağış** *(termoterapiya)*



İbrahimxəlil

Səh.9-da

Yaddaş

# 31 MART azərbaycanlıların soyqırım günüdür

XIX əsrin əvvəllərindən başlayaraq Qafqazda kütləvi şəkildə məskunlaşdırılan ermənilər az müddət sonra bölgəni sözün əsil mənasında "qan çanağı"na çevirdilər. Ermənilərin "Böyük Ermənistan" yaratmaq kimi qondarma ideyanın gerçəkləşməsi yolunda atdıqları addımlar azərbaycanlılara qarşı kütləvi qətllərin və soyqırım aktlarının reallaşması ilə nəticələndi. Bu qanlı tarix qısa fasilələrlə bütün 20-ci əsr boyu dönə-dönə təkrarlandı.

1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Səlyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələrininazərbaycanlılara qarşı törətdikləri qırğın. Rəsmi mənbələrə əsasən soyqırımın nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan itkin düşmüşdür. İndi o qanlı tarixdən 97 il ötür.

Tarix təsdiq edir ki, ermənilərin Qafqazda törətdikləri qırğınlar və soyqırımı aktları bir fakta əsaslanır. Onlar nəyin bahasına olursa-olsun Azərbaycan torpaqlarında məskunlaşmaq və aborigen xalq olduqlarını təsdiqləməyə çalışırdılar. Bu mənfur niyyəti reallaşdırmağın yolu isə azərbaycanlıların kütləvi soyqırımından,



qanlı talanlardan və deportasiya siyasətindən keçirdi. 1918-ci ilin martında Bakıda və Azərbaycanın digər bölgələrində həyata keçirilən dəhşətli soyqırımı aktı ermənilərin Qafqazda məskunlaşması üçün bir açar oldu. Onlar bu vəhşi əməlləri ilə bir növ bu bölgədə yaşamaq və Azərbaycan türklərinin tarixi vətəni olan indiki Ermənistan ərazisində dövlət qurmaq niyyətlərini reallaşdırdılar. Azərbaycan prezidenti İlham Əliyev: "Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük. Halbuki, sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır".

Azərbaycan müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edildi. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulan həqiqətlər açıldı, təhrif edilən hadisələr əsil qiymətini aldı. Ümummilli lider Heydər Əliyev 1998-ci il martın 26-da imzaladığı fərmanla 31 mart Azərbaycanlıların Soyqırım günü elan edildi. Bununla da Azərbaycan tarixində erməni məsələsinə münasibətdə yeni strategiya müəyyənləşdi. Bu, həm də Azərbaycan xalqının əsrlər boyu üzləşdiyi məhrumiyyətlərə rəhbəri Heydər Əliyev olan dövlətin verdiyi əsil tarixi qiymət idi. Təsadüfi deyil ki, bu proses sonrakı mərhələdə Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdi. Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində artıq dünya və beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə böhtanlar atan, siyasi və hərbi təcavüz həyata keçirən ermənilərin bu vəhşiliklərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması yönündə son illərdə bir sıra tədbirlər görülür. Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən kampaniya dünyanın bir çox şəhərlərini əhatə etməklə Azərbaycanın xaricdəki 50-yə yaxın diplomatik nümayəndəliyini və diaspor təşkilatlarını da bu prosesə cəlb etdi. Fondun hazırladığı və nəşr etdirdiyi kitab və bukletlər, Xocalı soyqırımını əks etdirən fotoşəkillər mötəbər təşkilatlarda düzənlənən mərasimlərdə bir daha xarici ölkə vətəndaşlarının diqqətini Azərbaycan xalqının faciəsinə, ermənilərin isə vandalizminə yönəltdi. Fondun nəşr etdirdiyi "Qarabağ həqiqətləri" toplusu Azərbaycan həqiqətlərini bütün dünyaya tanıtdı. "Xocalıya ədalət" kampaniyası isə Azərbaycan gəncliyinin Qarabağ həqiqətlərini, münaqişənin həllində ölkəmizin ədalətli mövqeyini və Xocalı soyqırımını bütün təfərrüatı ilə dünya ictimaiyyətinin diqqətinə çatdırmaq baxımından müasir tariximizin mühüm mərhələsi oldu.

Tarix heç zaman unudulmur, həm də yazılır. Erməni vəhşilikləri Azərbaycan tarixinin qanla yazılmış səhifəsi olsa da, güclü Azərbaycan yerləşdiyi bölgədə söz və nüfuz sahibi olmaqla bütün problemlərin öhdəsindən hər zaman uğurla gəlmək iqtidarındadır.

## Bakıdan məktub



***Salam, İslam müəllim!***

Necəsiniz? Sizi AzərTAc-ın 95 illik yubileyi və Novruz bayramı ilə əlaqədar səmimi qəlbdən təbrik edirəm. Allah canınızı sağ eləsin. Siz AzərTAc-ın 95 illik yubileyi münasibətilə Fəxri Fərmanla təltif olunmusunuz. Təbrik edirəm!

**Mehriban Quliyeva**
***AzərTAc-ın xarici ölkələrdəki müxbirləri ilə iş bölməsinin müdiri***

## Yeni assosiasiya yaradılıb

***"Gürcüstan azərbaycanlıları – islahata və inkişafa dəstək" ittifaqı-assosiasiyası yaradılmışdır.***

Assosiasiyanın prezidenti Fərhad Musayev yeni təşkilatın məqsəd və məramının soydaşlarımızın cəmiyyətə inteqrasiyası, onların yığcam məskunlaşdıqları bölgələrdə həyata keçirilən islahatlara dəstək, təhsil və başqa sahələrdə mövcud durumun yaxşılaşdırılması yönümündə fəal işə qoşulmaq olduğunu vurğulamışdır.

## Gənc yazarların nəzərinə!

AMM-in gənclər şöbəsinin "Gənclik" kitab klubu və "RegionPress" qəzeti gənc yazarlar üçün yeni imkanlar təklif edir. Bildiririk ki, gənc yazarların əsərlərindən ibarət şeir kitabçasının çapı nəzərdə tutulur. Bu layihəyə qoşulmaq, kitabçada öz şeirlərinizi görmək istəyirsinizsə aşağıdakı sənədləri may ayının 1-dək AMM-in gənclər şöbəsinə təqdim etmənizi xahiş edirik:

*1. Tərcümeyi-hal (elektron və çap variantları)*
*2. 2 ədəd fotoşəkil*
*3. Ən azı 15 şeir olmaqla microsoft word office proqramında yığılmış şeirlər (eyni zamanda, elektron versiyada)*

Layihə baş tutduğu müddətdə gənc yazarlar üçün ədəbiyyatçılarla müntəzəm görüşlər, seminarlar təşkil olunacaqdır. Layihəyə qoşulmaq istəyənlər bu görüşlərdə iştirak etməlidirlər.

***Hər birinizə Uğurlar!***

## Tbilisidə Novruz bayramı ilə əlaqədar Azərbaycan mətbəxi günü keçirilib

***Azərbaycanın Gürcüstandakı səfirliyinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən tədbir Böyük Britaniya-Gürcüstan Akademiyasında baş tutub.***

20-yə yaxın ölkədən olan əcnəbi şagirdlərin təhsil aldığı beynəlxalq məktəbdə Azərbaycan mətbəxinə məxsus müxtəlif növ təamlar, Novruz bayramının simvolları sayılan şirniyyatlar, həmçinin Azərbaycanın füsunkar guşələrinin əks olunduğu suvenirlər təqdim olunub.



Daha sonra şagirdlərə Novruz bayramı, onun özəllikləri haqqında ətraflı məlumat verilib.

## Gürcüstan iqtisadiyyatına sərmayə qoyan ölkələr sırasında Azərbaycan birinci yerdədir



İlkin hesablamalara görə, 2014-cü ilin IV rübündə Gürcüstan iqtisadiyyatına 349 milyon ABŞ dolları həcmində sərmayə qoyulub. Bu, 2013-cü ilin eyni dövrü ilə müqayisədə 61 faiz çoxdur. Bu barədə Gürcüstan Milli Statistika Xidməti (Qruzstat) məlumat yayıb.

Məlumatda deyilir ki, ötən ilin IV rübündə Gürcüstan iqtisadiyyatına sərmayə qoyan ölkələr sırasında Azərbaycan birinci yerdədir. Hesabat dövründə azərbaycanlı investorlar ölkəmizin iqtisadiyyatına 84 milyon dollar sərmayə qoyublar. Bu da ümumi xarici sərmayələrin 24 faizini təşkil edir.

"Qruzstat"ın məlumatına görə, siyahıda ikinci yerdə 67 milyon dollarla (19 Faiz) Niderlanddır. Böyük Britaniya isə 66 milyon dollarla üçüncü yerdədir.

## Qadın və gender məsələləri üzrə işləyən təşkilatların forumu

***Martın 25-də Marneuli Mülki Məşğulluq Mərkəzində (USAİD) qadın və gender məslələri üzrə işləyən təşkilatların forumu keçrilib.***



Görüşdə Marneuli Sakrebulosunun gender məsələləri üzrə məsləhətçisi İa Esebua və Gürcüstan Xalq Müdafiəçisi Aparatının Kvemo Kartli üzrə nümayəndəsi Leyla Məmmədova öz illik fəaliyyətlərini ümümiləşdirərək,gələcək planları haqda danışıblar. Görüşdə eyni zamanda Marneuli Demokrat Qadınlar Birliyi, Gürcüstan Azərbaycanlı Qadınlar İttifaqı və BMT-nin Qadınlar Fondunun "Qadınlar - sülhə, bərabərliyə və inkişafa doğru" layihəsinin nümayəndələri də iştirak ediblər.

Bundan başqa qadınların siyasətdə iştirakı, gündəlik həyatda üzləşdiyi problemlər, ailə-məişət problemləri də müzakirə olunub.

Görüşdə QHT nümayəndələri,siyasi partiya liderləri, qadın klublarının üzvləri, tələbələr və gendər məslələri ilə maraqlanan şəxslər də iştirak ediblər.

# Böyük Zəfərin 100 illiyidir

***Bu döyüşlərdə 3 mindən çox Azərbaycanlı əsgər də şəhid olub.***

***Martın 18-i Çanaqqala şəhidlərini anım günüdür.***

***Martın 18-də "Çanaqqala Zəfəri"nin 100-cü ildönümü qeyd edilir.***



Türkiyənin şanlı zəfər tarixinə çevrilən bu gündə Osmanlı dövləti dünyaya Türk əsgərinin rəşadətini nümayiş etdirib. Bu mübarizədə Türkiyə müttəfiqlərindən gözlədiyi yardımı ala bilmədi. 8 ay davam edən Çanaqqala savaşları hər iki tərəf üçün böyük itkilərə səbəb oldu. Düşmən qüvvələr Çanaqqalaya əvvəlcə 70 min əsgər göndərmişdi. Sonradan bu qüvvənin sayı yarım milyona çatdırıldı. Bunun 400 mini ingilis, 79 mini isə fransız ordusundan idi. İngilislər 115 min ölü, yaralı, əsir və məmələkətinə göndərilən 90 min xəstə olmaqla 205 min nəfər itirdilər. Fransızlar isə 47 min nəfər əsgər itirmişdir.

Qələbə Türk ordusunun 250 min əsgərinin şəhid olması hesabına əldə edilib. Türkiyə Cümhuriyyətinin quruluşundan sonra parlamentin qərarı ilə hər il martın 18-də "Çanaqqala Zəfəri" kimi qeyd edilir.

# Azərbaycan və Gürcüstan milli kitabxanaları arasında elektron kitab mübadiləsi həyata keçiriləcək

***Gürcüstan Milli Parlament Kitabxanasının direktoru Georgi Kekelidze və Elektron resurslar üzrə direktor müavini Levan Taktakişvili mart ayının 17-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında olublar.***



Milli Kitabxanadan AZƏRTAC-a bildirilib ki, görüşdə Georgi Kekelidze son bir il ərzində Gürcüstan Milli Parlament Kitabxanasında baş verən yeniliklərdən danışıb.

G.Kekelidze bildirib ki, kitabxana "Sierra" avtomatlaşdırılmış kitabxana sistemi əsasında işləyir.

Görüşün məqsədi Azərbaycan Milli Kitabxanası və Gürcüstan Milli Parlament Kitabxanası arasında bağlanmış ikitərəfli qarşılıqlı əməkdaşlıq haqqında memorandumun şərtlərinə müvafiq olaraq elektron kitab mübadiləsinin həyata keçirilməsidir. Bu mübadilə hər iki ölkənin milli kitabxanalarının fondunun zənginləşməsinə səbəb olacaq, kitabların təkrar surətinin çəkilməsinin, vaxt və əmək itkisinin, əlavə maddi xərclərin qarşısını alacaq.

Söhbət əsnasında memoranduma əlavə olaraq bu proseslərin həyata keçirilməsi üçün qarşılıqlı razılaşma əsasında müqavilə hazırlanması və Tbilisidə imzalanması qərara alınıb.

Qonaqlar, həmçinin Milli Kitabxanada tətbiq olunan "VTLS-Virtua" proqramı ilə yaxından tanış olublar.

# Gürcüstan prezidenti mühüm problemləri həll etmək üçün Vladimir Putinlə görüşə bilər



Hazırda Gürcüstan prezidenti Georgi Marqvelaşvilinin rusiyalı həmkarı Vladimir Putinlə görüşünün baş tutması ilə bağlı hazırlıq işi aparılmır, lakin danışıqların məqsədi iki ölkə arasındakı ən mühüm problemlərin həlli olacağı təqdirdə görüş keçirilə bilər.

Bu barədə Gürcüstan prezidentinin xarici əlaqələr üzrə müşaviri Tenqiz Pxaladze bildirib.

Qeyd edək ki, Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Rusiya və Gürcüstan diplomatları prezidentlər arasında görüşün mümkünlüyünü istisna etmir.

"Gürcüstan istənilən mühüm problemlərin dinc yolla həllinin tərəfdarıdır. Əgər təklif olarsa, biz onu nəzərdən keçirməyə hazırıq", deyə Pxaladze bildirib.

Bu arada Gürcüstan prezidenti mayın 9-da Moskvada İkinci Dünya Müharibəsində qələbəyə həsr olunmuş parada dəvət alıb. Lakin Gürcüstan XİN rəhbəri Tamara Beruçaşvili Marqvelaşvilinin bayram tədbirində iştirak etməyəcəyini bildirib.

## Marneuli xəbərləri

# Milli azlıqların müdafiəsinə dair çərçivə konvensiyasının icrası müzakirə olunub

Marneuli icra hakimiyyətində Gürcüstanda milli azlıqların müdafiəsinə dair çərçivə konvensiyasının (FCNM) məsləhətçilər komitəsi və irqçiliyə, dözümsüzlüyə qarşı Avropa Komissiyasının (ECRI) ekspertləri ilə işgüzar görüş keçirildi.



Görüşdə (FCNM) məsləhətçilər komitəsinin ekspertləri, barış və vətəndaş bərabərliyi məsələləri üzrə Dövlət Nazirliyi aparatının nümayəndələri, Kvemo Kartlidə dövlət müvəkkili-qubernator Paata Xizanişvili, icra başçısı Merab Topçişvili və yerli hakimiyyətin nümayəndələri iştirak etdilər. Gürcüstanda milli azlıqların müdafiəsinin çərçivə konvensiyası ilə nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsi yönündə mövcud vəziyyətlə bağlı səfərin yekununa dair hesabat hazırlanacaq.

# Meliorasiya işləri fəal davam edir

Gürcüstan vahid meliorasoya sistemləri kompaniyası Marneuli bələdiyyəsində Debed çayının suvarma sisteminin baş arxının birinci və sıra ilə digər birləşmələrinin daxili təsərrüfat şəbəkəsinin və Debed çayının mənbəsində ona tökülən arxlarda yenidənqurma işlərini həyata keçirir.



Layihə çərçivəsində sistemə yeni, bu çaya su əlavə edəcək 587 m xəttin çəkilməsi də planlaşdırılır. Bundan əlavə meliorasiya işləri Debed çayının Qullar və Qırıxlı kəndləri ərazisində arxların təmizlənməsini və hidrotexniki tikililərin yenidənqurulmasını da nəzərdə tutur.

Yeni su əlavə edən boruların və yardımçı tikililərin inşası da planlaşdırılır. Hazırda isə yenidənqurma işləri nəticəsində 3 kəndin (Araplı, Qırıxlı, Aşağı Qullar) 1800 nəfər əhalisinin faydalandığı 875 ha kənd təsərrüfatı torpaqları suvarma suyu ilə təmin olunub. Yenidənqurma işləri 2014-cü ildə başlayıb və bu il sona çatmalıdır.

# Rustaveli küçəsində drenaj sisteminin yenidənqurma işləri davam edirü

Layihəyə Marneulinin Rustaveli, Səməd Vurğun, Qoqebaşvili və Qurucu David küçələrinin drenaj sistemlərinin yenidənqurulma işləri daxildir və onu "İmeks" MMC yerinə yetirir. Yenidənqurma işlərinin yerinə yetirilməsi üçün yerli büdcədən 169.400 lari, mərkəzi büdcədən isə 365.000 lari ayrılıb.



# SOCAR-a edilən hücumun üstü açıldı

***Gürcüstan DİN-i SOCAR-ın Tbilisidə fəaliyyət göstərən yanacaqdoldurma məntəqəsinə edilən hücuma dair qaldırılmış cinayət işini "isti izlər"lə açıb.***



İş üzrə bir neçə nəfərə bədən xəsarəti yetirməkdə şübhəli bilinən, əvvəllər məhkum edilmiş Zurab U. saxlanılıb.

Qeyd edək ki, SOCAR-ın Tbilisidə fəaliyyət göstərən yanacaqdoldurma məntəqəsinə edilən hücum nəticəsində iki nəfər xəsarət alıb.

Nazilriyin verdiyi məlumatda qeyd edilir ki, hüquq-mühafizə orqanlarının keçirdiri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılan 1993-cü il təvəllüdlü Zurab U. bu il martın 23-də Quramişvili prospektində fəaliyyət göstərən SOCAR-ın yanacaqdoldurma məntəqəsinə basqın edib. Cinayətkar orada operator işləyən 1991-ci il təvəllüdlü Zurab A. və menecer kimi çalışan 1983 cü ildə anadan olmuş Cəfəri A.-nı soyuq silahla ayaqlarından yaralayaraq hadisə yerini tərk edib.

Polis Zurab U.-nu hadisədən bir neçə dəqiqə sonra Quramışvili prospektində yaxalayıb. Maddi sübut kimi ondan biçaq müsadirə edilib.

İş üzrə Gürcüstan CM 118-ci maddəsi ilə (qəsdən bədən xəsarəti yetirmək) cinayət işi açılıb. Saxlanılan şəxs günahını boynuna alıb.

# Gürcüstanda NATO-nun təlim və qiymətləndirmə Mərkəzi yaradılacaq



Bunu NATO-nun Uels Sammitindən sonra Şimali Atlantika İttifaqı və tərəfdaş ölkələr arasında əməkdaşlıq adlı beynəlxalq konfransda NATO- nun Cənubi Qafqaz üzrə zabit koordinatoru deyib.O, NATO-nun Bakı əlaqləndiricisinin Azərbaycan və NATO arasında əməkdaşlığa müsbət təsir etdiyini deyib.

Daha sonra NATO rəsmisi region barədə danışıb. Gürcüstanın NATO- nun üzvü olmaq üçün fəaliyyətinə diqqət çəkib.

V.Lahue vurğulayıb ki, Gürcüstan NATO ilə dərin əməkdaşlığa malikdir: "Uels sammiti NATO- nun tərəfdaşları ilə əməkdaşlığına dəyişiklik gətirib. Uels sammitində aparılmış danışıqların bir qismi yeni təhlükələrə həsr olunmuşdu. Daha sonra Rusiya təhlükə olduğunu sübut etdi. Rusiya bu gün nəinki region üçün, eyni zamanda Avropa üçün də təhlükədir. Biz Gürcüstanda təlim-tədris İnstitutu açacağıq. Bu, region ölkələrinin NATO ilə daha yaxından əməkdaşlığına imkan yaradacaq".

# Saakaşvilinin tərəfdarları aksiya keçirib

***"Vahid Milli Hərəkat" Partiyasının təşkilatçılığı ilə martın 21-də Tbilisidə etiraz aksiyası keçirilib.***



Tbilisinin Azadlıq meydanında keçirilən mitinqdə on minlərlə insan iştirak edib. Aksiya iştirakçıları ölkədə iqtisadi tənəzzülün olduğunu bildirərək hökumətin istefasını tələb ediblər. Partiyanın sədri, hazırda Gürcüstan prokurorluğu tərəfindən axtarışda olan sabiq prezident Mixail Saakaşvili aksiyaya video bağlantı ilə qoşulub.

Aksiya insidentsiz başa çatıb. Partiya rəhbərliyi mitinqlərin davamlı olacağını bəyan edib.

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili bu aksiyanı ölkədə sabitliyin pozulmasına yönəlmiş cəhd adlandırıb. Baş nazir deyib ki, hökumət hər hansı pozucu hərəkətin qarşısını qətiyyətlə alacaq və ölkədə yenidən qarşıdurmalara imkan verməyəcək.

# Gürcüstan parlamentinin deputatı vəfat edib



Gürcüstan parlamentinin müxalifət fraksiyasının təmsilçisi, "Vahid Milli Hərəkat" partiyasının üzvü Nauli Canaşia vəfat edib.

Ölkə prezidenti Georgi Marqvelaşvili deputatın vəfatı ilə əlaqədar onun yaxınlarına və həmkarlarına başsağlığı verib.

N. Canaşia 1947-ci ildə anadan olub. O, 2012-ci ilin oktyabrında keçirilən parlament seçkilərində Sameqrelo-Zemo Svaneti bölgəsinin Martvili rayonundan majoritar deputat seçilib. Canaşia parlamentdə fraksiya katibi, həmçinin beynəlxalq işlər və aqrar məsələləri üzrə komitələrin üzvü olub. Bundan əlavə, N. Canaşia Moldova, Belarus və Qazaxıstan dostluq qruplarının üzvü idi.

# Azərbaycan, Gürcüstan və Özbəkistan razılığa gəldi

***Özbəkistanın paytaxtı Daşkənd şəhərində Azərbaycan, Özbəkistan və Gürcüstan dəmir yolları rəhbərləri arasında üçtərəfli görüş keçirilib.***



"Azərbaycan Dəmir Yolları" QSC Mətbuat Katibliyinin rəisi Nadir Əzməmmədovun verdiyi məlumata görə, tədbirdə Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.

Görüşdə dəmir yolu sahəsinin inkişaf etdirilməsi, həmin dövlətlərin ərazisindən daşınan tranzit yüklərin həcminin artırılması, TRASEKA, Bakı-Tbilisi-Qars, eləcə də digər əhəmiyyətli beynəlxalq nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi sahəsində əməkdaşlığın bundan sonra da inkişaf məsələləri müzakirə olunub. Azərbaycan və Gürcüstan dəmir yollarının rəhbərləri yeni elektrikləşdirilmiş "Anqren-Pap" dəmir yolunun tikintisini dəstəklədiklərini bildiriblər.

Qeyd olunub ki, bu dəhliz yeni Çin-Qırğızıstan-Özbəkistan beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olmaqla, Azərbaycan və Gürcüstan ərazisindən keçməklə yüklərin Qara dəniz limanlarına çıxarılmasını təmin edəcək. Tədbirdə, həmçinin daşıma prosesində yaranan məsələlərin operativ surətdə həll edilməsi məqsədilə Azərbaycan, Özbəkistan və Gürcüstan dəmir yollarında bu dövlətlərin nümayəndəliklərinin açılması məsələsinə baxılması üzrə razılıq əldə edilib.

Üçtərəfli görüşün sonunda müvafiq protokol imzalanıb.

# Fransada qəzaya uğrayan «Airbus A320» təyyarəsinin birinci "qara qutu"su tapılıb

***Fransanın cənubunda «Airbus A320» sərnişin təyyarəsinin qəzaya uğradığı ərazidə birinci "qara qutu" aşkarlanıb.***

Bu barədə Yuxarı Provans departamentini Fransa parlamentində təmsil edən Kristof Kastane bildirib.

Germanwings aviaşirkətinin "Airbus A320" tipli təyyarəsi çərşənbə axşamı Alp dağlarında qəzaya uğrayıb. Son məlumatlara görə, Barselonadan Düsseldorfa uçan laynerin qəzaya uğraması nəticəsində 150 nəfər həlak olub.



# Obama Fələstin dövlətinin yaradılmasını dəstəkləyib



***ABŞ prezidenti Barak Obama Fələstin dövlətinin yaradılmasının bölgədə sabitliyin bərqərar olunmasının yeganə yolu olduğunu bildirib.***

"ABŞ inanır ki, iki dövlətin yaradılması regionda sabitliyə nail olmağın ən yaxşı yoludur", deyə Obama qeyd edib.

ABŞ prezidenti əlavə edib ki, İsrailin baş naziri Benyamin Netanyahunun bu məsələyə fərqli yanaşması var.

Bundan əvvəl Obama ABŞ qeyd edib ki, Israilin baş naziri Benyamin Netanyahunun yürütdüyü siyasət yaxın illərdə müstəqil Fələstin dövlətinin formalaşdırılmasına imkan vermir, münaqişənin həllinə əngəl törədir.

# ABŞ Ukraynaya hərbi yardım göndərmək barədə qanun qəbul edib

***Konqresin Nümayəndələr Palatasında keçirilən iclasda böyük səs çoxluğu ilə Ukraynaya silah sistemləri çatdırılması məsələsi razılaşdırılıb.***



ABŞ Konqresində Ukraynaya hərbi yardım edilməsi ilə bağlı qanun layihəsi səs çoxluğu ilə qəbul edilib.

Konqresmenlərin 348 nəfəri təklifin lehinə, 48 nəfər əleyhinə səs verib, 36 nəfər isə bitərəf qalıb.

Qəbul edilən qətnamə əsasında prezident Barak Obama qarşısında Ukraynaya təcili hərbi yardım göstərilməsi tələb ediləcək. "Qət edilmişdir ki, Nümayəndələr Palatası prezidentdən tam və təxirəsalınmaz formada Ukraynaya döyüş tipli silah sistemləri çatdırılması ilə bağlı addım atmasını tələb edir." - deyə qanunda göstərilir.

Rəsmi Moskva konqresin bu addımına münasibətində bəyan edib ki, Ukrayna hökumətinə hərbi yardım edilməsi ölkədəki gərgin vəziyyəti daha da pisləşdirəcək və bu qərar Vaşinqtonun bu münaqişəni sülh yolu ilə həll etmək istəməsi barədə iddialarına tamamilə ziddir.

# Ukrayna prezidenti: *"Donetsk və Luqanskın 70 faizi terrorçulardan təmizlənib"*



***"Ötən ilin 5-23 avqust tarixlərində silahlı qüvvələr tərəfindən separatçıların nəzarət etdiyi ərazilərdə 40-dan çox hərbi əməliyyat keçirilib. Keçirilən hərbi əməliyyatlar nəticəsində Donetsk və Luqansk vilayətlərinin 70 faizi separatçılardan təmizlənib".***

Bu sözləri Ukrayna prezidenti Pyotr Poroşenko Ukrayna Milli Müdafiə Universitetində generallarla görüşü zamanı söyləyib.

P.Poroşenko mümkün hücumlara qarşı adekvat cavab veriləcəyini bildirib: "Ukrayna ordusu müharibədə böyük təcrübə toplayıb. Onu da deməliyəm ki, Ukrayna Avropa qitəsindəki ən güclü orduya sahib olan beş ölkədən biridir".

P.Poroşenko ölkənin qərbindəki döyüşlərdə qəhrəmanlıq göstərən 4 nəfərə "Ukrayna Qəhrəmanı" fəxri adını da təqdim edib.

# Yəmənin XİN rəhbəri körfəz ölkələrini öz ölkəsinə hücum etməyə çağırdı

***Ölkənin cənubundakı Ədən şəhərinə qaçdıqdan sonra istefasını geri götürən Əbduh Rabbi Mənsur Hadiyə sadiq Riyaz Yasin KƏT ölkələrinə və BMT-yə müraciət edib.***




Yəmənin Xarici İşlər naziri Riyaz Yasin açıqlamasında Körfəz ölkələrini husi inqilabını yatırmaq üçün öz ölkəsinə hərbi müdaxilə etməyə çağırıb.

İstefasını geri götürən prezidentə sadiq XİN rəhbəri bu barədə "al-Sharq al-Awsat" qəzetinə müsahibəsində bildirib. R.Yasin paytaxtda və ölkənin bir sıra əyalətlərində möhkəmlənən husi inqilabını məğlub etmək üçün Körfəz Əməkdaşlıq Təşkilatının (KƏT) altı üzv ölkəsini Yəmənə hücum etməyə dəvət edib.

XİN rəhbəri müsahibəsində bildirib ki, Yəməndə uçuşa qadağan zonaların yaradılması və husilərin nəzarətində olan hava limanlarında aviasiyanın hərəkətinin qadağan edilməsilə bağlı addım atılması üçün KƏT və BMT-yə müraciət olunub.

Ekspertlər Körfəz ölkələrinin Yəmənin daxili işlərinə müdaxilə edəcəyi təqdirdə ölkədə gərginliyin daha da artacağını bildirirlər.

# Azərbaycan Rusiya və Gürcüstana beynəlxalq sərnişindaşıma tariflərinin aşağı salınması barədə müraciət edib

***Martın 11-dən dəmir yolunda beynəlxalq sərnişin daşımalarında tariflər təxminən 25 faiz artıb.***

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətindən bildirilib ki, bu artım Rusiya, Ukrayna və Gürcüstan dövlətlərində milli valyutanın İsveçrə frankına olan məzənnəsi dəyişdiyinə görə, beynəlxalq sərnişin daşımalarında İsveçrə frankına uyğun tənzimlənən tariflərə müvafiq olaraq tətbiq edilib.

"Azərbaycan Dəmir Yolları" QSC bununla əlaqədar olaraq, "Rusiya Dəmir Yolları" ASC-yə və Gürcüstan Dəmir Yollarına beynəlxalq sərnişindaşıma tariflərinin aşağı salınması barədə müraciət edib.

Yaxın günlərdə qiymətlərin endirilməsi məsələsinin həll olunacağı gözlənilir.



# Baş nazir soyuq müharibə fondu yaradır

Böyük Britaniyanın Baş naziri Devid Kemeron Şərqi Avropa ölkələrini Rusiyanın təhlükəsindən dəstəkləmək



məqsədilə fond yaradır. Modern.az xarici KİV-ə istinadən bildirir ki, fondun büdcəsi hələ ki 5 milyon funt olacaq, ancaq sonradan bu rəqəm 20 milyona qədər artacaq. Bu vəsait Ukrayna, Moldova, Gürcüstan, Bosniya və Hersoqovina və Serbiyada demokratiyanın dəstəklənməsinə yönəldiləcək. Məlumatda qeyd edilir ki, layihə soyuq müharibə dövründə, Böyük Britaniyanın keçmiş Baş naziri Marqaret Tetçerin hazırladığı proqrama əsaslanacaq. O zaman pul SSRİ-nin təsir dairəsində olan Çexoslavakiya, Macarıstan və Polşada iqtisadi və siyasi inkişafa dəstək məqsədilə ayrılıb.




**1854** — Krım müharibəsi: Birləşmiş Krallıq Rusiya İmperiyasına müharibə elan edib.

**1918** — Bessarabiya və Moldova Rumıniyaya birləşib.

**1927** — Məşhur violençel ifaçısı və dirijor Mstislav Rostropoviç anadan olub.

**1958** — Nikita Xruşşov Sovet İttifaqının Baş naziri olub.

**1961** — Azərbaycan bəstəkarı Vaqif Gərayzadə anadan olub.

**1963** — Amerikalı rejissor Kventin Tarantino anadan olub.

**1964** — Alyaskada zəlzələ 118 insanın həyatına son qoyub.

# Dünya şöhrətli müğənni Rəşid Behbudovun 100 illik yubileyi qeyd ediləcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də görkəmli müğənni və tanınmış ictimai xadim, xalq artisti, Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı Rəşid Behbudovun anadan olmasının 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda 2015-ci ilin dekabrında Azərbaycanın çoxəsrlik mədəniyyəti tarixində bənzərsiz yeri olan Rəşid Behbudovun anadan olmasının 100 illiyinin tamam olması diqqətə çatdırılıb.



Bildirilir ki, özünəməxsus ifaçılıq tərzinə və həzin lirizm çalarlı ecazkar səsə malik sənətkar təkrarolunmaz yaradıcılığı boyunca sənət aləminə gətirdiyi yeniliklərlə milli musiqi salnaməsini xeyli zənginləşdirib. Vətənə və xalqa son dərəcə bağlı olan sənətkar dünyanın ən məşhur teatr səhnələri və konsert salonlarındakı rəngarəng repertuarlı saysız çıxışları ilə Azərbaycan mədəniyyətinə geniş şöhrət qazandırıb.

Sərəncamda milli ədəbiyyatımızın inkişafı və təbliğində mühüm xidmətləri olan Rəşid Behbudovun 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə Mədəniyyət və Turizm Nazirliyinə sənətkarın yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirmək tapşırılıb.

# Çar sülaləsinin varisi M.F.Axundov adına Mədəniyyət Müzeyində

Tbilisidəki Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyət Muzeyində Baqrationi çar sülaləsinin varisi cənab David Baqrationi Muxran Batonişvili ilə görüş keçirildi. Gürcüstan-Azərbaycan tarixi dostluğuna və mədəni əlaqələrinə həsr olunmuş görüşü Mədəniyyət Muzeyinin rəhbəri Leyla Əliyeva açdı. Leyla xanım bu görüşün xalqımızın milli bayramı olan Novruz bayramı ərəfəsində keçirilməsinin təsadüfi olmadığını xüsusi vurğuladı.

Ağsaqqallar Şurasının sədri İshaq Novruzov, tanınmış yazıçı-tərcüməçi Emin Elsevər, Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyinin əməkdaşı Samirə Ağayeva, Bolni-



si bələdiyyəsinin deputatı Leyla Əliyeva, Gürcüstan Vəkillər Assosiasiyasının üzvü, hüquq müdafiəçisi Fərhad Musayev öz çıxışlarında Gürcüstan-Azərbaycan dostluğunun tarixi qaynaqlarından, mədəni əlaqələrimizin keçmişindən və bu günündən, gələcək perspektivlərindən danışdılar.

Məşhur Baqratoni çar taxtının varisi cənab David Baqrationi Muxran Batonişvili görüşün təşkilatçılarına təşəkkürünü bildirdi. O qeyd etdi ki, mədəniyyət yolu ilə dialoq həmişə dövlətçilik ənənələrinin qorunub saxlanmasına və daha da inkişaf etdirilməsinə xidmət etmişdir. Novruz bayramı münasibəti ilə Gürcüstandakı soydaşlarımızı və dünya azərbaycanlılarını səmimi təbrik edən qonaq bu qəbildən olan görüşlərin vacibliyini vurğuladı.

**"RegionPress"**

# Azərbaycan ozan-aşıq sənəti gürcü mənbələrində

**Almaz YURDSEVƏR**



Azərbaycanda şifahi xalq yaradıcılığının əsas qollarından biri aşıq sənətidir. Dastanlar, nəğmələr, rəvayətlər nəsildən-nəslə ötürülür və söyləyənin bacarığından, süjetin təfsilatını, rəngarəng poetik obrazları yaddaşına köçürmək qabiliyyətindən asılı olaraq, dəyişikliyə məruz qalır. Şifahi yaradıcılığın qorunub saxlanmasında, onun bədii məziyyətlərinin zənginləşməsində xalqın mənəvi sərvətinin keşiyində duran xalq dastançılarının xidməti böyükdür.

Azərbaycan qədim zamanlardan belə dastançılar - ozanlar yaşayıb-yaradıblar. Onlar sonradan -XVI-XVII əsrlərdən aşıq adlanıb. Aşıq sənətinə qədim epik dastanlar, xalq azadlığını, qəhrəmanlığını, dostluğu, məhəbbəti vəsf edən mahnılar daxildir. Dastançı fəaliyyəti ilə yanaşı, fərdi poetik yaradıcılıqla da məşğul olan belə fitri istedada malik şair aşıqlar təkcə aşıq poeziyasına deyil, Azərbaycanın yazılı ədəbiyyatına da güclü təsir göstəriblər. Ümumiyyətlə, aşıq sənəti xalq mühitində yaranmış şifahi xalq yaradıcılığı musiqi formasıdır və təsir gücü, məşhur olması və kamilliyi baxımından analoqu olmayan bir təzahürdür. Bu kiçik bir tamaşadır, burada musiqi, saz və müəllif-aşıq vəhdət təşkil edir. Aşıq sənəti sintetikdir, yəni aşıq şeir yazır, musiqi bəstələyir, həm də oxuyaraq sazda çalır və rəqs edir. Azərbaycan aşıqlarının əcdadları olan qədim ozanların həyatından, sevgisindən, qəhrəmanlığından bəhs edən ən qədim epik əsər VII əsrə aid olan "Kitabi-Dədə Qorqud" dastanıdır. 1300 il bundan əvvəl dastançı Dədə Qorqud sülhə çağırır, şücaəti, dəyanəti və məhəbbəti vəsf edirdi. Aşıq yaradıcılığında milli poeziyanın qoşma, müxəmməs, ustadnamə, qıfılbənd kimi janrları, həmçinin onların gəraylı, divani, təcnis kimi poetik şəkilləri geniş yayılıb. Aşıq poeziyası xalq tərəfindən sevildiyi üçün əsrlər boyu qorunub saxlanıb və yalnız XIX-XX əsrlərdə aşıq poeziyası nümunələri intensiv toplanıb nəşr olunmağa başlanıb.

Şifahi xalq ədəbiyyatının, o cümlədən, Azərbaycan folklorunun təbliğində aşıqlar həmişə mühüm rol oynayıblar. Onlar zəhmətkeşlər arasından çıxır, öz əsərlərində əməkçi xalqın zövqünü tərənnüm edir, xalqla gülür, xalqla ağlayır, necə deyərlər, xalqla birgə nəfəs alırlar. Xalq isə aşığı sevir, onun yaratdığı əsərləri həvəslə öyrənir, məclislərdə oxuduğu mahnılara, çaldığı havalara maraqla qulaq asır.



Görkəmli şair və alim İosif Qrişaşvili yazırdı: "Köhnə Tiflisdə bir nigah, bir ad günü, bir toy, bir şənlik belə aşığın və sazandarın iştirakı olmadan keçməzdi".

Gürcüstanda aşıqlar həm sadə xalq, həm də kübar cəmiyyət arasında böyük hörmət və nüfuza malik idilər. Əksəriyyəti sənətkarlar arasından çıxırdı. Onlar əsasən sənətkarlıqla məşğul olur, boş vaxtlarını isə aşıqlığa sərf edirdilər. Tiflis aşıqları bir neçə dildə- gürcü, erməni, türk, Azərbaycan, fars dillərində oxuyurdular. Belə ki, onların sənəti Tiflisin çoxmillətli əhalisi üçün anlaşılan idi.

Tiflisin bəzi yerlərində və Zaqafqaziyanın bir çox bölgələrində Azərbaycan dilinin dominant dil olması danılmaz faktdır. Bu onun nəticəsidir ki, yeri gələndə ruslar da, gürcülər də, ermənilər də, yunanlar da, osetinlər də bizim dildən istifadə edirdilər.

Ədəbiyyatşünas Yusif Ramazanov aşıq yaradıcılığının maraqlı tədqiqat obyekti olduğunu nəzərə alaraq XIX əsrdə azərbaycanca yazıb-yaradan Zaqafqaziyada qeyri-azərbaycanlı aşıqların yaradıcılığını öyrənib, həmin sənətkarların Azərbaycan dilində yazmalarının səbəblərini, onların yaradıcılıq üslublarını, istifadə etdikləri şeir şəkillərini, beynəlmiləlçilik nümayiş etdirən xalqların aşıq ədəbiyyatı üçün maraqlı olan bir sıra məsələləri aydınlaşdırmağa təşəbbüs göstərib.

Aşıq şeirinin gürcü yazılı ədəbiyyatına, gürcü şairlərinin yaradıcılığına təsiri çox güclü idi. Aleksandr Çavçavadzenin və Qriqol Orbelianinin, Aleksandr Tumanişvilinin və Besikinin əsərləri bunu sübut edir. Onların bir çox müxəmməsləri, gəraylıları, təcnisləri və bayatıları vardır.

XVIII-XIX əsrlərdə Azərbaycan və gürcü poeziyası sıx qarşılıqlı əlaqədə inkişaf edirdi. Azərbaycan şairləri və xanəndələri Gürcüstana gedir, orada uzun müddət yaşayır, azərbaycanca bilən gürcü şair və aşıqları ilə tanış olur və onlara müəyyən təsir göstərirdilər. Məhz bu təsirin nəticəsində gürcü şair və aşıqları da müxəmməs, müstəzad, təcnis, bayatı, gəraylı, qoşma, dodaqdəyməz, qəzəl və sair şeir formalarından istifadə edirdilər. Bu proses XIX əsrin axırları və XX əsrin əvvəllərində xüsusilə güclənmişdi. Başlıca səbəb isə Zaqafqaziyada aşıq sənətinin güclü inkişafı, Azərbaycan dastan yaradıcılığının Gürcüstanda geniş yayılması idi.

İ. Qrişaşvili Tiflis aşıqlarından danışarkən yazırdı: "Onlar əsl aşıq idilər və üç dildə - gürcücə, azərbaycanca və ermənicə oxuyurdular. Bu aşıqların bəzisi tiflisli, bəzisi irəvanlı, gəncəli, şamaxılı, həştərxanlı idilər".

Aparılmış tədqiqatlar nəticəsində gürcücə yazan şair-aşıqların əksəriyyətinin Azərbaycan dilində əsərlər yaratdığı müəyyənləşdirilib.

Vano Esağov "Dərya kənarında" Azərbaycan xalq nəğməsi motivində yazdığı şeirində sevgilisinə əsasən azərbaycanca yalvarır:

*Canımnan bezar olmuşam man da,*
*Dzmobilo, şentan movdivar manda (gürcücə)*
*(Əzizim, gəlirəm yanına sənin).*
*Bir öpüş alım, qoy qalsın manda*
*Əlimdə gülüm, gəl, mənim gülüm,*
*Yaşmanır, küsüb, barışmır gülüm.*

Azərbaycan dilini bilən gürcülər danışıq zamanı çox vaxt "səni", "məni" əvəzinə "sənə" (sanğa), "mənə" (manğa) işlədirlər. Həmin əlamət özünü Vano Esağovun şeirində də özünü göstərir. Deməli, gürcülər qədim Azərbaycan dilinə məxsus olan formanı mühafizə edib saxlamışlar. Özü də bu forma vaxtilə təkcə danışıq dilində deyil, şeir-sənət dilində də saxlanıb.

Anton Qanciskareli bir şeirində zəmanəsində hökm sürən ədalətsizlikdən, ac-yalavacların saysız-hesabsız olmasından şikayətlənir:

*Tanrı, məgər gözünnən görmürsənmi,*
*Bu tərs dünyada heç düz divan yoxdur.*
*Biri doyurmuş camaatı qannan,*
*Çörəkdən ac qalmış hesabdan çoxdur.*

Azərbaycanca əsərlər yaratmış qeyri-azərbaycanlıların yaradıcılığının gürcü mənbələri əsasında öyrənilməsi sahəsində görülmüş işləri o qədər də qənaətbəxş saymaq olmaz. Bir sıra aşıqların, o cümlədən, XVIII əsrin ikinci yarısında yaşayıb yaratmış Kiçik Nova kimi məşhur aşığın gürcü əlifbası ilə yazıya alınmış 27 şeiri ötən əsrin 80-ci illərində tapılıb. Bu şeirlərdə onun Azərbaycan aşıq sənətinin incəliklərini dərindən bildiyi göstərilir.

Aşıqların əksəriyyətində olduğu kimi, Kiçik Novanın yaradıcılığında da məhəbbət mövzusu mühüm yer tutur. "Pərvanəyəm" şeiri bu cəhətdən çox xarakterikdir:

*Gəl, dilbər, məni qul eylə, pərvanəyəm, pərvanə,*
*Eşqin odunu kül eylə, pərvanəyəm, pərvanə.*
*Namə yazmaqdan yorulmaz nə qolum, nə barmağım,*
*Oxu, dilin bülbül eylə, pərvanəyəm, pərvanə.*

Çaxmaxçı Aslanın, Dülgər oğlunun, Şamçı Melkonun və bir çox başqalarının gürcü mənbələrində rast gəldiyimiz azərbaycanca şeirləri də Aşıq yaradıcılığının öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

Akademik Həmid Araslı haqlı olaraq yazırdı: "Azərbaycan aşığı təkcə Azərbaycan şəraitində deyil, onun zəngin yaradıcılığı Zaqafqaziya xalqlarının içərisində dərin məhəbbət və hörmətlə qarşılanmış, aşıqlıq sənəti gürcü və erməni xalqlarının içərisində də inkişaf etmişdir. Biz hələ XVI əsrdən Azərbaycan dilində qoşmalar yaradan gürcü və erməni aşıqlarına təsadüf edirik ki, bu sənətkarların zəngin irsi də Azərbaycan aşıq şeirinin xəzinəsinə əlavə edilmiş sərvətidir".

# Qulaq ağrısı və Günel Mövlud, yaxud GÖYSATANLAR

**(saqa)**

Qulaq ağrısı Mirzə Qələmə imkan vermir. İmkan vermir ki, gözlərini açıb bir Əyriqar tərəflərə də baxa. Özü deyir ki, bu qulaq ağrısı hələ Zviad Qamsaxurdiyanın "xəlfə"liyi dövründən başlayandır; beş ildən bir, üç ildən bir tutur. Onda mən illərdir əzbərlədiklərimi Mirzə Qələmə yenidən arazbarı ərməğan edib pıçıldayıram: "...ananız sizi beşikdə yırğalaya-yırğalaya sizə türk dilində lay-lay deyirdi və siz qulaq ağrısı səbəbinə sakit olmurdunuz. Axırı biçarə ananız sizə deyirdi: – Bala, ağlama, xortdan gələr səni aparar! – və siz dəxi canınınzın qorxusundan səsinizi kəsib ağlamaqdan sakit olurdunuz".

Mirzə Qələm "xoxan gəldi"ylə qorxan oğullardan olmasa da, xoxanla-xortdanla bağlı ehtiyatını da heç vaxt əldən verməyib. Amma bu yaxınlarda eşidəndə ki, Tiflis tərəflərdə Xocalıdan qorxan xoxanlar peyda olub, elə həmin saatdan qulaq ağrıları onu yenidən acıq-qıcıq aşüftəhal eləməyə başlayıb.

Deyirəm ki, ay Mirzə Qələm, ayıbdır axı, bu yaşda qulaq ağrısı nədir, sonra Günel Mövlud eşidər, deyər ki, alın bu da sizə Əyriqarın ətəklərinə yaxın bizi istəməyənlərin biri! Amma Mirzə Qələmin toparlanmağa taqətimi var? Çünki onun aşüftəhallığı nə Zviad Qamsaxurdiyalıq, nə Günel Mövludluq, nə Eduard Limonovluq, nə də xoxanlıq-xortdanlıqdır! Onun qulaq ağrısının səbəbi – əlbəttə, özünün iddia elədiyitək – onun göyünü satmaq istəyənlərin gəvəzəliyidir. Göy deyəndə Günel Mövludun dediyi göydən, yəni göy-göyərtidən söhbət getmir. Söhbət başımız üstdəki göydən-səmadan-fələkdən gedir. Sən demə – əlbəttə, yenə də Mirzə Qələmə görə – başımız üstdəki göyü də göy-göyərtitək satmaq olurmuş.



Amma bu yerdə arazbarı uzaqlara getməliyəm...

...Günel Mövlud "Göysatan olmaq istəməyən Gürcüstan gəncliyi" adlı "şəxsi mülahizələri"ndə yazır: "... tarixdə bəlkə ilk dəfə Gürcüstanın etnik azərbaycanlı gəncliyi ayağa qalxıb... sayt açıblar... göysatan kimi tanınmamaq üçün".

Mirzə Qələmin qulaq ağrısından mütəssir ola-ola ağlıma gəlir ki, biz – Səməd Qaraçöp, Ayvaz Əlləzoğlu, Nəriman Əbdülrəhmanlı – öysüz (evsiz-eşiksiz) olan illərdə Mirzə Qələm deyirdi ki, heç fikir çəkməyin, öyümüz yoxdur, göyümüz ki var! Öysüz olaq, təki göysüz olmayaq! Sonra Səməd də, Ayvaz da, Nəriman da Bakıya köçdülər. Əyriqarın ətəklərinə yaxın biz qaldıq, məktəbimiz qaldı... Məktəbimiz bizim göyümüz-səmamız idi...

... və bu boşluğu görüb Günel Mövlud gəldi, Seymur Baycan gəldi... Allahın altı böyükdür və Allahın bu böyük altında kim harada istəyirsə orada da yaşaya bilməzmi?

Deyirəm ki, ay Mirzə, Günel Cəbrayıldandır, Seymur da Füzulidən; sənə and verirəm: qonaqdırlar, onlara güldən ağır söz demə, axı həm də qaçqındırlar. Seymurun sənin sevimli yazıçın olan Elçinə də küfrlər yağdırmağına da bənd olma. Məgər yoxsullar-qaçqınlar küfrə yaxın yaşamırmı? Seymurun "Baladadaşın toy hamamı"nı bəyənməməyi ki üzdəndir ki, heç onun toy hamamı olmayıb bəlkə; Füzulidəki güllə yağışı gül yağışı deyildi ki?..

Mirzə Qələm mənə "tarixdə bəlkə ilk dəfə" Gürcüstanın etnik azərbaycanlı gəncliyinin Günel Mövludla Seymur Baycanın tamadalıq təlimatlarıyla yaratdıqları saytda getmiş "şəxsi mülahizələr"dən və baş nazir Qaribaşviliyə məktubdan çıxarışlar göstərir; baxın: "Hətta bəzi məktəblərdə qonşu ölkə (Azərbaycan) bayrağının olması", "Gürcüstanın mədəni həyatından bixəbər və dünyəvi dəyərlərdən uzaq müəllimlər", "Azərbaycan məktəblərini bağlamaq vaxtıdır", "Abxaziyadan daha çox Qarabağ üçün ağlamaq", "Xocalıya ədalət istəyən ikiüzlülər" ... siyahı uzadılsa gedib Dərbənddən Səmərqəndə çıxar. Bu ki əsl "müqəddəs inkvizisiya"dır! Mən hətta daha çox Mirzə Qələmin qulaq ağrısı kəssin deyə "Süsən-Sünbüldə renessans" adlı "ekstrim" də yazdım...

Bu minvalla "Gürcüstanın etnik azərbaycanlı gəncliyi"nin səmimiyyəti indiyəcən göylərə, hətta göylərin yeddinci qatına çatmış olmazmı? Çünki Mirzə Qələm üçün arada-sırada önəmli deyil ki, onun haqqında – əlbəttə, göysatan olaraq – Mirzə Simon Simonişvili, Mirzə Levon-Məlik Şahnazaryan, ya da "milli metr" olan Mirzə Mikrob nə yazıb? Mirzə Qələm üçün İlya Çavçavadzenin, Terenti Qranelinin, Qoderzi Çoxelinin, Merab Mamardaşvilinin haqqımızda yazdıqları önəmlidir!

Mirzə Qələmin qulaq ağrısının gücləndiyini görüb əlavə edirəm ki, bəs deməzsənmi, ay Mirzə, axı Günel Mövlud "Yüz ilin tənhalığı"nı, "Norveç meşəsi"ni, "Qırmızı və qara"nı tərcümə edib. Bəlkə...

Bu yerdə Mirzə Qələm barıt çəlləyi kimi partlayır: – Ay onun qırmızısı da, qarası da andırına qalsın, söyxə günə getsin. O hələ görmürmü ki, xoxan-xortdan, internet trolları (Skandinav mifologiyasında xoxan-ifritə) yetişdirir?

İstər-istəməz "Xoxan" filmini xatırlayıram. Gülməkdən az qala adamı öldürmürdümü?

Həm də mənə bircə şey də maraqlıdır: cadu, falçı, cinçıxarma ilə limhəlim dünyada adam xoxandan-xortdandan qorxar, daha xoxan-xortdan durub adamdan qorxmaz ki? Dolayısıyla, "renessans"çıların Xocalıdan belə ehtiyat eləmələri hansı ürbənd üzdən ola bilər? Bəlkə onların, Xocalı misallı, xocası-müəllimi olmayıb? Doğrudur, Süsən-Sünbüldə (Cəbrayılda və Füzulidə də) uşaqları arada-sırada müəllimlə də qorxudublar.

...Günel Mövlud öz "şəxsi mülahizələri"ndə bunu da yazır: "illər uzunu səni bu ölkədə göysatan kimi tanıyırlar, sonra qəfildən ("tarixdə ilk dəfə") səni həmin ölkədə inkişaf etmiş toplum kimi tanıtmağa çalışan gənclər çıxır, sənsə əlindən gələni edirsən ki, o gəncləri susdurasan".

Bəs mənim Mirzə Qələmə deyim nədir, ay hörmətli Günel İmanova? "Gürcüstanın etnik azərbaycanlı gəncliyi"ni susdurmaq yox, dilinə dil vermək lazımdır! Axı nədən bizdən də bir şpana, bir klaker, bir internet trolu-xuliqanı çıxmasın? Yoxsa bu nədir? Sənin dediyintək, hamı göysatandır. Sənin azərbaycanlı restoran, kafe sahiblərindən "Gürcüstanın etnik azərbaycanlı gəncliyi" üçün "maddi xərc" istəməyin isə... lap çanlaradəyəndir! Amma bu yerdə bizdən – Mirzə Qələmdən də, elə məndən də incimə. Biz elə bu tərəfdən yarımamışıq. Unudulmaz Məmməd Araz özü və Mirzə Qələm üçün (həm də Zahid Sarıtorpaq, Əlabbas, Aslan Quliyev, Qoca Xalid, İman Usuboğlu, Adil Mirseyid üçün) belə yazmamışdımı:

*Yastı-yastı*
*yapalaqlar yarıdı.*
*Girdə-girdə*
*topalaqlar yarıdı.*
*Yarımadın heç nədən,*
*yarımadın...*
*Nə yaxşı!*
*...Çömçə tutan əlləri*
*yalamadın nə yaxşı,*
*yarımadın nə yaxşı...*

Bizdən də – Mirzə Qələm , Mirzə Səfər, Mirzə Səməndər – arada-sırada göy-göyərti satanlar oldu ki, balalarımız ( məsələn, üç ailənin 17 balası) küfrə yaxın yaşamasınlar. Və biz göy-göyərti satanlara (əlbəttə, söhbət bir qomadan beş qoma düzəldən pərgarlardan getmir) həmişə səmimi baxdıq; çünki ömrümüzü-günümüzü məktəbə verə-verə gördük ki, hütüldəyib tökən hökumətlərə hər dəfə bel bağlamaq olmaz. Çünki... kaş 1989-1999-cu illərdə bizə bazardan başqa bircə iş yeri göstərən olaydı!

Və bizim göyümüz- səmamız (elə göy-göyərtimiz də) heç zaman qurtarmadı, qurtaran da deyil, inşallah!

**P. S.**

***Həkim Mirzə Qələmə Ölü dənizdə müalicə olunmağı məsləhət görüb... Maraqlıdır, qulaq ağrısına "Ölü"dən də işıq düşərmiş...***

**İbrahimxəlil**

# Əfsanəvi yazıçı Servantesin qəbri tapıldı

Məşhur "Don Kixot" müəllifinin qəbrinin bir neçə illik axtarışı bəhrə verməkdədir: ispan arxeoloqlar yazıçının təxmini dəfn yerini tapa biliblər.



Təxminən 400 ildir ki, Servantesin qəbri itmiş hesab olunurdu. Ehtimal edilirdi ki, o, 1616-cı ildə Madriddə Müqəddəs Üçlük Ordeni monastrında dəfn olunub. Bu müddət ərzində monastrın binası bir neçə dəfə təmir edilib, fransiskan rahiblər (XIII əsrdə təsis olunmuş fransiskan katolik təriqəti rahibi – red.) isə məbədin ərazisində yüzlərlə yoxsul ispaniyalını dəfn edib. Məlumdur ki, Servantes də elə ömrünün sonunu səfalət içərisində keçirib.

Qorunub saxlanılmış arxiv məlumatları sayəsində məlum olub ki, yazıçını 1616-ci ilin bir şənbə səhəri kilsədə dəfn ediblər. Həm də Servantes ölümündən əvvəl rahibliyi qəbul etdiyindən ordenin bütün qaydalarına riayət olunmaqla dəfn olunub. Məhz elə bu fakt yazıçının təxmini dəfn yerini ehtimal etməyə əsas verib. Belə ki, geomaqnit radarın köməyi ilə "M.S." inisiallı bir qəbir tapılıb. İndi bircə qalır meyitin identifikasiyası.

Bu günlərdə qəbir açılacaq və məhkəmə tibbi ekspertləri yazıçının həyatının məlum faktları ilə meyiti müqayisə edəcəklər. Məlumdur ki, Servantes 1571-ci ildə Lepanto yaxınlığındakı döyüşdə üç güllə yarası alıb: ikisi döş qəfəsindən, biri isə bazu önündən (dirsəklə pəncə arasındakı hissə - red.). Sonuncu yara o qədər ciddi idi ki, yazıçının sol əli iflic olmuşdu. Tədqiqatçıların fikrincə, bütün bunlar sümüklərdə iz qoymalıdır. Alimlər həmçinin kəllə sümüyünə əsasən Servantesin "üzünü" bərpa etməyi planlaşdırırlar.

# Gürcüstan "Eurovision-2015" mahnı müsabiqəsinin ilk yarımfinalında, Azərbaycan isə ikinci yarımfinalında çıxış edəcək

***"Eurovison-2015" mahnı müsabiqəsinin iştirakçısı olan ölkələrin yarımfinalda çıxış ardıcıllığı açıqlanıb.***

Müsabiqənin rəsmi saytında yerləşdirilən siyahıda Azərbaycanın ikinci yarımfinalda mübarizə aparacağı qeyd olunub. Azərbaycan təmsilçisi səhnəyə 11-ci çıxacaq.

İlk yarımfinalda ölkələrin çıxış ardıcıllığı belədir: Moldova, Ermənistan, Belçika, Niderland, Finlandiya, Yunanıstan, Estoniya, Makedoniya, Serbiya, Macarıstan, Belarus, Rusiya, Danimarka, Albaniya, Rumıniya və Gürcüstan.




İkinci yarımfinalda isə ölkələr bu ardıcıllıqla çıxış edəcək: Litva, İrlandiya, San Marino, Monteneqro, Malta, Norveç, Portuqaliya, Çex Respublikası, İsrail, Latviya, Azərbaycan, İslandiya, İsveç, İsveçrə, Kipr, Sloveniya və Polşa.

İlk yarımfinal mayın 19-da, ikinci yarımfinal mayın 21-də olacaq. Müsabiqənin finalı isə mayın 23-nə təyin olunub.

Müsabiqəyə ev sahibliyi edəcək Avstriya təşkilatçıların qərarına əsasən, finalda 14-cü çıxış edəcək. Ölkələrin finaldakı iştirak ardıcıllığı isə yarımfinalların nəticəsi məlum olandan sonra müəyyənləşəcək.

Qeyd edək ki, Vyanada keçiriləcək "Eurovision-2015"-də Azərbaycanı Elnur Hüseynov "Hour of the Wolf" mahnısı ilə təmsil edəcək.

**Qarayev Ravil Telman oğlu 28 iyul 1979-cu il tarixində Tbilisi şəhərində anadan olub.**
*1985-ci ildən 1993-cü ilə qədər Tbilisi şəhər 105 saylı orta məktəbində təhsil alıb.*
*1993-cü ildə təhsilini Sankt-Peterburq şəhərinin 242 saylı orta məktəbində davam etdirib.*
*1994-1996-cı illərdə Sankt-Peterburq Sənaye Kollecinin hüquq fakültəsində təhsil alıb.*
*1996-cı ildə Gürcüstan Texniki Universitetinin beynəlxalq hüquq ixtisasına qəbul olunub və 2001-ci ildə oranı bitirib.*
*2002-2006-cı illərdə Azərbaycan Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun aspiranturasında təhsil alıb.*
*2007-2008-ci illərdə "Qafqaz İnkişaf Bankı" ASC-nin Tbilisi filialında hüquq şöbəsinin rəisi vəzifəsində işləyib.*
*2008-ci ildə Gürcüstan Vergi-Gömrük Akademiyasında assistent-professor vəzifəsində işləyib.*
*2008-2009-cu illərdə "Qafqaz İnkişaf Bankı" ASC-nin Tbilisi filialında direktor müavini vəzifəsində işləyib.*
*2009-cu ildən 2013-cü ilin iyun ayına qədər "Qafqaz İnkişaf Bankı" ASC-nin Tbilisi filialında direktor vəzifəsində çalışıb.*
*2013-cü ilin iyun ayından bu günə qədər "Qafqaz İnkişaf Bankı-Gürcüstan"SC-nin Direktorlar Şurasının sədridir.*



# Ravil Qarayev: *"Biz multimədəni bank müəssisəsini yaradırıq və bunu da öz müştərilərimizə təklif edirik."*

**Müsahibimiz "Qafqaz İnkişaf Bankı - Gürcüstan" SC-nin Direktorlar Şurasının sədri Ravil Qarayevdir.**

***– Cənab Ravil, salam. Mən müsahibə almaq üçün öncə Sizin bankınız barədə məlumatı əldə etməyə çalışdım və müəyyən oldu ki, Siz 16 ildir ki, bazarda fəaliyyət göstərirsiniz, lakin bir o qədər də görünmürdünüz. Bu günə necə gəldiyiniz barədə məlumat verə bilərsinizmi?***

– Sizi salamlayıram, qəzetinizin sadiq oxucularını salamlayıram və fürsətdən istifadə edərək bütün Gürcüstanı Novruz Bayramı münasibətilə təbrik edirəm. Siz haqlısınız, ana təşkilatımız olan və Bakıda bazalaşdırılmış Qafqaz İnkişaf Bankı 1999-cu ildə öz fəaliyyət arealını genişləndirməyi və Gürcüstanda, o cümlədən, onun paytaxtında öz filialını açmağı qərara almışdır.

Əslində, 2013-cü ilin yazına kimi bizim təşkilatımız filial statusu ilə fəaliyyət göstərirdi, 2013-cü ildə isə təsisçilərimiz müstəqil bank şəklində fəaliyyətimizin davam etdirilməsini qərara almışlar. Bankın kollektivi, eləcə də tənzimləyici orqanımız bu fikri bəyənmişdir. Biz nə dərəcədə böyük məsuliyyəti öhdəmizə götürəcəyimizi anlayırdıq, lakin bazar barədə biliklərimiz və tərəfdaşlarımızın dəstəyi bizə buna tam hüququ verirdi.

Demək olar ki, 2013-cü il bankın ikinci doğum tarixi olmuşdur. Biz gürcü bank bazarında fəaliyyətimizə dəyər verir və fəxr edirik. Baxmayaraq ki, bank çox tanınmış



deyil, lakin bizim bankımız da bu dövr ərzində bank sistemi qarşısında duran çağırışların öhdəsindən gəldi və sübut etdi ki, o, istənilən istifadəçiyə qapısını geniş açmaq hüququna malikdir.

**– Sizin tərəfinizdən bizə təqdim edilən məlumat xoşdur. Bildiyimiz kimi, bankda bir sıra yeniliklər vardır və maraqlıdır, Siz nədən susursunuz və özünüzü nədən tanıtmırsınız.**

– Bəli, Siz haqlısınız. 6 ay əvvəl bizim bankımız öz yerini dəyişdirib və biz Xetaqurov, №36 ünvanında yerləşən yeni inşa edilmiş ofis binasına köçdük. Bankın ölçüsündən irəli gələrək, biz bütün ofisi tutmamışıq, lakin düşünürük ki, qeyd edilən ofis ən yaxın dövr ərzində bankımızın siması olacaqdır və potensial və ya mövcud olan müştərilərimizə, o cümlədən, Sizin oxucularınıza bildiririk ki, bankdan əlavə, qeyd edilən binada bir neçə böyük şirkət yerləşdiriləcəkdir, onlar öz fəaliyyəti ilə paralel olaraq rahat şəkildə yalnız bank xidmətindən deyil, eləcə də ofis binası üçün səciyyəvi olan bütün xidmətlərdən, 24 saatlıq mühafizədən, avtodayanacaqdan, konfrans və ofis imkanlarından istifadə edə biləcəklər. Bizim bankımızın şüarı tamdəyərli bank xidmətinin təklif edilməsi yolu ilə Qafqaz regionunda ticarət-iqtisadi əlaqələrin dərinləşdirilməsini dəstəkləməkdir.

Biz həm yerli, həm də Azərbaycandan gəlmiş sahibkarlar üçün belə demək mümkündürsə, maliyyə "həb"i olmağa çalışırıq. Bankı tanıtmağa gəldikdə isə, bizim məqsədimiz işin yerinə yetirilməsindən ibarətdir və nəticələr bizim yerinə yetirdiyimiz işləri nümayiş etdirəcəkdir.




**– İndi ayrı-ayrı banklarda müxtəlif əməliyyatlar həyata keçirilir. Bəs, Siz istifadəçilərə hansı bank xidmətlərini təklif edirsiniz?**

– Digər bank müəssisəsində əldə edilməsi mümkün olan bütün bank xidmətlərini. Biz mayın sonuna qədər bankımızın viza kartlarını istifadəyə verəcəyik. Biz imza atmışıq və ən yaxın zamanda kənd təsərrüfatı məhsullarının maliyyələşdirilməsini tətbiq edəcəyik. Zəmanətli məhsullar bazarında möhkəmlənmək üçün çalışırıq. Eyni zamanda, istifadəçilərimizə və tərəfdaşlarımıza eksklüziv depozit dərəcələrini təklif edirik. Bizim təkliflərimiz barədə məlumatı Sizə təqdim edəcəyəm və ümid edirəm ki, ən yaxın zamanda Marneuli şəhərində və onun ətraflarında bizim istifadəçilərimizlə daha da yaxınlaşmaq imkanımız olacaqdır. Biz multimədəni bank müəssisəsini yaradırıq və bunu da öz müştərilərimizə təklif edirik.

Bildirirəm ki, biz operativ, çevik və rahat olacağıq. Sizin oxucularınıza isə təklif edirik ki, bizim bank müəssisəmizdə depozitlər yerləşdirsinlər və bizə – Xetaqurov, №36 və ya Marcanişvili, №4 ünvanına gəlsin, bizim əmanət şərtlərimizlə tanış olsun və digər bankların faiz dərəcələri ilə müqayisə etsinlər. Məsələn, 1 illik müddətli əmanətlərə görə biz Sizə 7,25% təklif edirik, bu da digər bankların faiz dərəcələri ilə müqayisədə olduqca yüksəkdir:

| *Valyuta* | *3 ay* | *6 ay* | *9 ay* | *12 ay* | *18 ay* | *24 ay* |
|---|---|---|---|---|---|---|
| **GEL** | **4.00 %** | **6.00 %** | **7.50 %** | **8.00 %** | **8.10 %** | **8.25 %** |
| **USD** | **--** | **4.50 %** | **5.00 %** | **7.25 %** | **7.50 %** | **8.00 %** |
| **EUR** | **--** | **2.00 %** | **3.00 %** | **5.00 %** | **5.10 %** | **5.25 %** |



**– Siz Marneuli şəhərinin adını çəkdiniz, Kvemo Kartli regionu ilə əlaqədar planlarınız barədə məlumat verə bilərsinizmi?**

– Kvemo Kartli regionu bank üçün strateji regionlardan biridir. Şəxsən mənim orada çoxlu dostum var, onlar bizdən mütəmadi olaraq filialın açılmasını və əməliyyatların aktivləşdirilməsini xahiş edirlər. Biz bu istiqamətdə konkret addımlar atmışıq, torpaq sahələri aldıq və öz ofisimizi inşa etməyi planlaşdırırdıq, lakin dövlət əhəmiyyətli yolunun genişləndirilməsi səbəbindən, biz 100 metrlik zolağa düşdük, buna görə də planlarımızı dəyişdirməli olduq. Hal-hazırda fəal şəkildə sahənin kirayəyə götürülməsini müzakirə edirik və düşünürük ki, 2015-ci ilin sonuna qədər Sizin gözəl regionunuza bizim servis mərkəzimiz də əlavə ediləcəkdir. Biz etnik azərbaycanlı olan Gürcüstan vətəndaşlarının dəstəyinə və loyallığına ümid edirik.

**– Bizim oxucularımıza nə arzulayardınız?**

– Sizin qəzetinizin əməkdaşlarına Kvemo Kartli əhalisini və bütün azərbaycanlıları bir daha Novruz Bayramı münasibətilə təbrik edirəm və hər zaman düzgün maliyyə qərarlarını qəbul etməyinizi arzulayıram. Biz isə Sizi baş ofisimizdə, Tbilisidə, Xetaqurov, №36 ünvanında və ilin sonuna kimi Marneulidə gözləyirik.

**– Maraqlı və əhatəli müsahibəyə görə çox sağ olun.**

– Təşəkkür edirəm.

*Müsahibəni yazdı:* **Binnət Əlioğlu**

# Heydər Əliyev Mərkəzində "Cracking art" və "Səməni" Beynəlxalq İncəsənət Sərgisi açılıb

***Xalqımız Novruz bayramını böyük sevinclə qeyd edir. Bu əziz günlərdə şəhərimizin sakinləri və paytaxtımızın qonaqları Heydər Əliyev Mərkəzinin parkında maraqlı sərgilərlə tanış ola biləcəklər.***

Martın 18-də Heydər Əliyev Mərkəzinin parkında "Cracking Art" və "Səməni" Beynəlxalq İncəsənət Sərgisinin rəsmi açılış mərasimi keçirilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərginin açılış mərasimində iştirak edib.



Avropanın məşhur "Cracking Art Group" əsərləri Mərkəzin parkında nümayiş etdirilir. "Pop-art" janrındakı nəhəng incəsənət əsərlərindən ibarət sərgi IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin rəsmi tərəfdaşlığı ilə təşkil olunub. Layihənin məqsədi Azərbaycanda ekoloji problemlərin həllinə, flora və faunanın qorunmasına diqqəti artırmaqdır. IDEA-nın rəhbəri Leyla Əliyeva bura toplaşan gənclərlə birlikdə sərgi ilə tanış olub.

Qeyd edək ki, 1993-cü ildə Avropanın 6 rəssamı - italiyalı Renzo Nukara (Renzo Nucara), Marko Veronez (Marco Veronese), Kikko (Kicco), fransalı Aleks Anci (Alex Angi), belçikalı Karlo Rizzetti (Carlo Rizzetti), Vilyam Svitlav (William Sweetlove) bir araya gələrək "Cracking Art Group"u yaradıblar. Bu hərəkat bütün səylərini müasir incəsənət haqda təsəvvürlərin dəyişməsinə, sənətdə sosial və ekoloji istiqamətlərdə innovativ metodlar tətbiq etməklə yenilik yaratmağa yönəldib.

Rəssamlar təkrar emal edilmiş və asan utilizasiya olunan sintetik materiallardan hazırladıqları nəhəng, parlaq rəngli heyvan fiqurları ilə ictimaiyyətin diqqətini ətraf mühitin problemlərinə yönəldirlər. "Cracking art" əsərləri bir tərəfdən diqqəti ekoloji məsələlərə çəkir, digər tərəfdən isə yeni texnologiyaların tətbiqini nümayiş etdirir.

"Cracking Art Group" öz yaradıcılığı ilə bu günədək dünyanın bir sıra şəhərlərini fəth edib. Qeyd olunan əsərlər Nyu-York, Sidney, Milan və digər şəhərlərdə nümayiş olunub.

Martın 18-də, həmçinin Mərkəzin parkında ənənəvi "Səməni" sərgisi təqdim olunub. Novruz bayramı ərəfəsində keçirilən sərgidə müasir incəsənət nümunələri - səmənilər nümayiş etdirilib. Bu sərgi Novruz günlərində izləyicilərə bayram əhval-ruhiyyəsini birlikdə yaşamağa və rəssamların Novruz ənənələrinə modern yanaşmasını təqdim edən incəsənət əsərləri ilə tanış olmağa imkan yaradır.

Səməni təbiətin oyanışını, canlanmasını təcəssüm etdirir, həyat və bolluq rəmzi hesab olunur. Qədimdə insanlar yazqabağı "Səməni, saxla məni, ildə göyərdərəm səni" deyərək taxıl cücərtməklə bolluq, bərəkət arzularını ifadə ediblər. Əsrlər keçib, sivilizasiya inkişaf edib, müxtəlif tarixi dövrlərdə yasaqlar qoyulub, lakin Azərbaycan xalqı Novruzu adət-ənənələri və rəmzləri ilə bərabər yaşadaraq çağdaş dövrümüzə qədər gətirib çıxarıb.

Xatırladaq ki, Azərbaycanın təşəbbüsü ilə 2009-cu il sentyabrın 30-da Novruz UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib. 2010-cu il fevralın 23-də isə BMT Baş Məclisinin 64-cü sessiyasının iclasında martın 21-i Beynəlxalq Novruz Günü elan olunub.

Bu baxımdan Heydər Əliyev Mərkəzinin layihəsi olan "Səməni" sərgisi milli adət-ənənələrimizi, dəyərlərimizi yaşatmaq, yeni nəslə çatdırmaqla yanaşı, həm də Novruzun müasir incəsənətin sərhəd tanımayan dili ilə daha geniş şəkildə təbliğində xüsusi əhəmiyyət daşıyır.

Tədbir çərçivəsində iştirakçılar arasında keçirilən viktorinanın qaliblərinə qiymətli hədiyyələr təqdim olunub.

**AzərTAc,**
***Bakı***

## Tbilisidə Azərbaycan, Gürcüstan və Türkiyə arasında üçtərəfli əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib

***Martın 16-da Tbilisidə Azərbaycan, Gürcüstan və Türkiyə nümayəndə heyətlərinin iştirakı ilə "Üçtərəfli əməkdaşlıq: yeni perspektivlər və çağırışlar" mövzusunda beynəlxalq konfrans keçirilib.***



Konfransda Azərbaycan, Gürcüstan və Türkiyə arasında üçtərəfli əməkdaşlığın inkişaf perspektivləri, birgə həyata keçirilən regional layihələr, sülh və təhlükəsizliyə təhdidlər, yeni çağırışlar müzakirə olunub.

Gürcüstan Beynəlxalq Strateji Araşdırmalar üzrə Fondun prezidenti Aleksandr Rondeli konfransı açaraq bildirib ki, bu gün bütün dünyada, eləcə də Cənubi Qafqazda baş verən proseslər regional əməkdaşlığın daha da gücləndirilməsini zərurətə çevirib. Bugünkü konfransda Azərbaycan, Gürcüstan və Türkiyə nümayəndələrinin birgə iştirakı ilə regional sülh məsələləri müzakirə olunacaq, sülhün və əməkdaşlığın inkişafı ilə bağlı yeni çağırışlara dair fikir mübadiləsi aparılacaq. Konfransda, həmçinin təhlükəsizlik və strateji əməkdaşlıqla bağlı yeni layihələr də nəzərdən keçiriləcək.

Sonra Gürcüstan xarici işlər nazirinin müavini Gigi Gigiadze çıxış edərək ölkəsinin üçtərəfli regional əməkdaşlığın inkişafına böyük əhəmiyyət verdiyini qeyd edib. O deyib ki, bölgədə baş verən bəzi proseslər, o cümlədən regional münaqişələr inkişafımıza ciddi maneələr törədir. Bu münaqişələr eyni zamanda Avropanın və hətta dünyanın təhlükəsizliyinə təhdiddir. Nazir müavini 2015-ci ildə Gürcüstanın ev sahibliyi ilə üçtərəfli əməkdaşlığa dair daha yüksək formatda görüşün keçiriləcəyini bildirib.

Konfransda digər çıxış edənlər bildiriblər ki, bu gün regionda həyata keçirilən layihələr təkcə bizim ölkələrimizin deyil, Avropa və Asiya ölkələrinin də inkişafını təmin edəcək. Regionda baş verən münaqişələr isə inkişafımıza mane olmaqla yanaşı, Avropa ölkələrinin də enerji təhlükəsizliyini təhlükə altında qoyur. Ermənistan işğalçılıq siyasətinə son qoymayınca bu layihələrdən kənarda qalacaq. Təəssüf ki, biz münaqişələrin həllinə çalışdığımız bir vaxtda ikili standartlarla üzləşirik. Bu da həm sülhə, həm təhlükəsizliyə, həm də nəzərdə tutduğumuz layihələrin vaxtında həyata keçirilməsinə maneələr yaradır.

Çıxışlarda üçtərəfli regional əməkdaşlığın Azərbaycan, Gürcüstan və Türkiyə dostluğunu daha da möhkəmləndirəcəyi qeyd edilib. Bildirilib ki, bu cür tədbirlər yeni layihələrin həyata keçirilməsinə imkan yaradacaq. Hər üç ölkənin rəhbərləri, parlamentləri və hökumət üzvləri arasında keçirilən görüşlərin əhəmiyyəti xüsusi qeyd edilib, regional əməkdaşlığın xalqlarımız və ölkələrimiz arasında strateji tərəfdaşlığın daha da möhkəmlənməsinə xidmət etdiyi vurğulanıb.

# TANAP dünyada ən mühüm strateji kəmərlərdən biri olacaq

***Türkiyənin Qars vilayətində Trans-Anadolu qaz boru kəməri — TANAP-ın təməlqoyma mərasimində Prezident İlham Əliyev Avropanın qaza olan tələbatının ödənilməsində Azərbaycanın mühüm rolunu vurğuladı.***

Müstəqilliyinin bərpasından ötən 24 ildə böyük uğurlara imza atan Azərbaycan regional və qlobal layihələrin əsas iştirakçısı və təşəbbüskarına çevrilməklə yanaşı, beynəlxalq aləmdə etibarlı tərəfdaş imicini formalaşdıra bilib. Ümummilli lider Heydər Əliyevin hazırladığı və uğurla həyata keçirdiyi yeni neft strategiyası ölkəmizin dinamik inkişafını təmin edib, maliyyə imkanlarının artmasına səbəb olub. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu müstəqil Azərbaycanın enerji strategiyasının təntənəsi olaraq Xəzərin karbohidrogen ehtiyatları ilk dəfə olaraq alternativ yollarla dünya bazarlarına çıxarılmağa başladı. Beləliklə, ölkəmiz həm regional, həm də beynəlxalq səviyyədə enerji sistemində yer aldı, strateji tərəfdaşa çevrildi, dünya enerji bazarlarında öz yerini möhkəmləndirdi.

Azərbaycan dünyada etibarlı tərəfdaş kimi qəbul edilir. Bir çox dövlətlər, beynəlxalq təşkilatlar Azərbaycanla əməkdaşlıqda maraqlı olduqlarını açıq şəkildə bəyan edirlər. Bu da ondan irəli gəlir ki, təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan yeni neft strategiyası dövlətimizin başçısı İlham Əliyev tərəfindən uğurla icra olunur. Ölkə Prezidenti bildirir ki, enerji təhlükəsizliyi marşrutlarının şaxələndirilməsi, hasilatçı, tranzit və istehlakçı ölkələrin birgə fəaliyyəti uğur gətirəcək. "Bu günə qədər bizim qaz və neft layihələrimizdə ancaq 3 ölkə iştirak edirdi-Azərbaycan, Gürcüstan və Türkiyə. Bu gündən sonra biz geniş beynəlxalq əməkdaşlıq prosesinə qədəm qoyuruq. Azərbaycan qaz istehsalçısı kimi öz resurslarını dünya bazarına çıxaracaq. Ondan sonra Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya, gələcək mərhələdə Monteneqro, Xorvatiya və digər ölkələr bu layihəyə qoşula bilərlər. Ona görə, burada əlaqələndirmə işləri çox yüksək səviyyədə aparılmalıdır."

Dövlət başçısı İlham Əliyev bəyan edir ki, enerji sahəsində əməkdaşlıqla bağlı aparılan müzakirələr keyfiyyətcə yeni məzmun daşıyır. Artıq Azərbaycanın enerji resursları Avropaya ixrac edilir. Eyni zamanda Azərbaycan qazını Avropa bazarına çatdırmaq üçün yeni imkanlar yaradılır. Qeyd edək ki, Azərbaycanın 2012-ci ildə enerji sahəsində əldə etdiyi uğur İstanbulda Türkiyə və Azərbaycan




arasında Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) üzrə Hökumətlərarası Müqaviləni Prezident İlham Əliyev və Türkiyənin həmin dövrdəki Baş naziri Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanması oldu. Trans-Anadolu qaz boru kəmərinin (TANAP) Türkiyənin ərazisindən keçən hissəsinin tikintisinə başlanılır. Azərbaycan üçün əhəmiyyətli və strateji layihə olan TANAP ilə Avropaya 10 milyard kubmetr, Türkiyəyə isə 6 milyard kubmetr Azərbaycan təbii qazının nəqli nəzərdə tutulur. Boru kəmərinin 2018-ci ildə istismara verilməsi planlaşdırılır.

Artıq xəbər verildiyi kimi martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda Trans-Anadolu qaz boru kəməri - TANAP-ın təməlinin qoyulması münasibətilə təntənəli mərasim keçirildi.

Mərasimdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bir daha Türkiyədə olmaqdan məmnunluğunu bildirdi, gələn ay Çanaqqala zəfərinin 100 illik yubileyində qardaş ölkəyə yenidən səfər edəcəyini söylədi. "Bu gün tarixi gündür və bu layihə, ilk növbədə, Türkiyə-Azərbaycan birliyinin layihəsidir. 1994-cü ildə ulu öndər Heydər Əliyevin siyasi müdrikliyi və cəsarəti sayəsində reallaşan "Əsrin müqaviləsi" ilə başlanan enerji siyasəti nəticəsində ilk dəfə Xəzər dənizinə xarici neft şirkətləri gəldi. Xəzər neftinin ixrac olunması üçün inşa edilən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsi bölgənin və qitənin enerji təhlükəsizliyində əvəzsiz rol oynadı." TANAP qaz kəmərinin də bu enerji dəhlizi üzrə inşa edildiyini deyən Prezident İlham Əliyev dünya miqyasında böyük qaz yataqlarından olan "Şahdəniz"in "Cənub" qaz dəhlizi üçün yeganə resurs mənbəyi olduğunu vurğuladı.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Şahdəniz" qazını Avropaya çatdıracaq bu kəmərin əhəmiyyətindən danışaraq lahiyənin ilk növbədə, ölkələrimizin və bölgə xalqlarının rifahına xidmət edəcəyini bildirdi.

Mərasimdə SOCAR-ın prezidenti Rövnəq Abdullayev TANAP-ın həyata vəsiqə qazanmasının Azərbaycan və Türkiyə dövlət başçılarının səyləri nəticəsində mümkün olduğunu bildirdi, bu layihənin ölkələrimizin inkişafına və xalqlarımızın rifahına xidmət edəcəyini diqqətə çatdırdı.

Avropa Komissiyasının enerji məsələləri üzrə vitse-prezidenti Maroş Şefçoviç 2014-cü ildə Bakıda "Cənub" qaz dəhlizinin, 6 ay sonra isə Qarsda TANAP layihəsinin təməlinin qoyulmasını mühüm hadisə kimi dəyərləndirdi.

Azərbaycanla Avropa arasında körpü yaratmaq rolu TANAP-ın üzərinə düşüb. TANAP dünyada ən mühüm strateji kəmərlərdən biri olacaq. TANAP-ı haqlı olaraq BTC-dən sonra regionda ən böyük layihə adlandırırlar.

**Orxan Vahidoğlu**, ***"İki sahil"***

# QƏDİM TİFLİSİN QƏDİM MƏSCİDLƏRİ

Dünya şəhərləri arasında Tiflisin də özünəməxsus yeri vardır. Burada müxtəlif dinlərə qulluq edən dindarların ibadət yerləri, məbədləri öz-özlüyündə bu qədim şəhərin gözəllik çalarlarına, koloritinə öz cizgilərini,özəlliklərini əlavə edir.Onlar bir-birinə çox yaxın olmaqla bir çevrəni təşkil ediblər. Onların qədim Tiflisin mərkəzində olduğu yer dördbucaq həndəsi fiquru əks etdirirmiş. İfadəmi keçmiş zamanda ona görə qeyd etdim ki, bu fiqurun bir ucunu təşkil edən şah Abbas məscidi hazırda mövcud deyildir. O, yalnız o dövrdə yaşayan rəssamların əsərlərində, fotoqrafların şəkillərində qorunub saxlanılmışdır. Odur ki, oxuculara bu məscidlər barədə müəyyən məlumat vermək istəyirəm. Tiflisdə müsəlman əhalisi ərəblər tərəfindən işğaldan sonra, VIII əsrdən əmələ gəldi. Orta əsrlər boyu burada bir neçə məscid inşa olunub. Müəyyən bir vaxt Tiflisdə bir neçə məscid fəaliyyət göstərirmiş. Onun bəziləri Nadir şahın Gürcüstana hücumu zamanı darmadağın edilmişdi. Müsəlman qəbiristanlığının, indiki Nəbatat bağının yaxınlığında, hazırkı Cümə məscidinin üst yanında məscid mövcud olub. İndiki Cümə məscidi öz simasını dəfələrlə dəyişmişdir. XIX əsrin sonlarında isə məscid hazırki formasını almışdır.

Narınqalanın ətəyində, indiki Nəbatat küçəsinin sonunda, 1723-1735-ci illərdə Tiflisi ələ keçirən zaman osmanlılar sünni məscidi inşla ediblər ki, bunu da həmin dövrdə iranlılar 1740-cı ildə dağıdıblar. 1846-1851-ci illərdə məscid memar Covanni Skudiyerin layihəsi əsasında bərpa olunub, lakin XIX əsrin sonunda onu da dağıdıblar və yerində yenisini inşa ediblər ki, bu da hazırda Tiflisin fəaliyyətdə olan yeganə məscididir.

Bütün müsəlman aləmində tanınmış milyonçu - neftxuda Hacı Zeynalabdin Tağıyev Tiflisə gələrkən (o, Tiflisdə Mixaylovski küçəsində, indiki Qurucu David prospektində torpaq icarəyə götürərək, bez istehsal edən fabrik tikdirmişdi) Cümə məscidinə baş çəkmiş, onun tikintisinin başa çatdırılması üçün müəyyən məbləğdə ianə vermişdir.

J. Turnefor «Şərq ölkələrinə səyahət» əsərində yazır:

«Tiflisdə beş yunan üslubunda olan kilsə vardır – dördü şəhərdə, biri də şəhər ətrafı məhəllədə. Elə burada yeddi erməni kilsəsi, Qalada iki məscid vardır. Üçüncü məscid də vardı, lakin hazırda baxımsız vəziyyətdədir».

Orta əs¬rlərdə Meydan tərəfindən kör¬püyə doğru gedən dar küçə dükanlarla dolu idi. Körpü yaxınlığında sahildə axtalalı yepiskopun yerləşdiyi, Konstantin və Yelena adına tikilmiş kilsə var idi. Onu monqollar uçurmuşlar. Onun bərpasından sonra yenə də Şah Abbasın hücumu zamanı dağıdılmışdır. Onun yerində XIX əsrdə üçmərtəbəli karvansara tikilmişdir. 1522-ci ildə Şah İsmayılın qoşunlarının hücumu zamanı dağıdılmış kiçik kilsənin yerində bilavasitə körpünün yanında şiə məscidi tikilmişdir. Sonralar Şah Abbasın hücumu zamanı (1606-cı il) məscid genişləndirilmiş, minarələr ucaldılmışdır. Məscid şah Abbasın adını daşıyırdı. Böyük Vətən müharibəsindən sonra yeni körpünün tikilişi ilə əlaqədar məscid uçurulmuşdur.

İranlıların son hücumu zamanı, 1795-ci ildə şəhər tarmar ediləndə körpü dağıdılmışdır. 1797-ci ildə o bərpa edilmiş və yalnız 1805-ci iləđək mövcud olmuşdur. Körpünü daşmış Kür çayı uçurub-dağıtmışdır. 1805-ci ildə salınmış ağac körpü tağlı ağac körpüsü ilə əvəz edilənədək, yəni 1826-cı ilədək mövcud olmuşdur. 1870-ci ildə burada dəmir körpü salınmışdır.

1805-ci ildən, bir az aşağıda çox da güvənili olma¬yan ikinci körpü fəaliyyət göstərirdi ki, o da tez-tez təzələnməli olurdu. Yuxarı körpü Avlabar körpüsü, aşağı körpü Metex körpüsü adlanırdı.

1849-cu ildə Metexin müvəqqəti keçidləri əvəzinə ağacdan «Taun» sistemli körpü salınır ki, bu da 1870-ci ilədək mövcud olur. Sonra isə onu dəmir körpü əvəz edir. Avlabar körpüsündən nəqliyyat, araba, fayton keçirdisə, Metex körpüsündən yalnız piyadalar, eşşəklər hərəkət edirdi. Buna görə də tiflislilər bu körpüyə «Eşşək körpüsü» adı da vermişdilər. Avlabar körpüsünün uzunluğu 30,5 metr idi, Metexinki isə - 27,5 metr. Yeni dəmir-beton körpüsünün tikintisi ilə əlaqədar hər iki köhnə körpü iyirminci əsrin 50-ci illərində Metex körpüsünün tikintisinə başlanmadan öncə – 1951-ci ildə, Avlabar körpüsü isə yeni körpünün açılışından bir neçə il sonra, 1955-ci ildə uçurulmuşdur.




İndiki körpü 1951-ci ildə salınmışdır. Bu körpü salınan zaman Metex qalasının dibində mövcud olan körpülərin həndəvərlərində qədim tikililərdən oluşan özünəməxsus kompleks məhv edilmişdir. Burada yaşayış binaları ilə yanaşı, Kürün sahilindəki karvansaralar, «Şah Abbas» məscidi adlanan məscid uçurulmuşdur.

Yazıçı, tarixçi, publisist, siyasi və ictimai xadim (II İraklinin nəvəsi, şahzadə Teklenin böyük oğlu) Aleksandre( Pupliya) Orbelianinin verdiyi məlumata görə, Nağaraxananın yanında şəhərin məscidlərindən biri dururdu ki, bunu da Vaxuştinin dediyinə görə., «Çar Rostom inşa edib... öz sarayının içində (çar Rostom müsəlmanlığı qəbul edərək Xosrov Mirzə adlanırdı- M.M.) şahzadə Baqrationinin «Gürcüstan çarlığının tarixi» kitabında ümumiyyətllə, Tiflisdə körpünün qulağında bir neçə məscidin olmasını qeyd edir – biri hamamların yanında, biri Gəncə qapısının yanında, biri də çar meydanında. Sənədin verdiyi məlumata görə, Rastbazarın təxmini lokallaşdırılması mümkün olur. Rastbazar sənədlərdə bizə XVII əsrdən rast gəlinir. Sənədlərə görə, Rastbazarın dükanlarının şimalında məscidin divarıdır ( 1781-ci il, 22 iyul tarixli sənəd, Gürcüstan Mərkəzi Arxiv Fondu 1450, dəftər. №4, №89) (Burada Rostom tərəfindən Çar meydanında inşa olunan məscid nəzərdə tutulur). Başqa sənədə görə isə məscidin bu divarı Saracxana dükanı ilə həmsərhəddir: «Saracxana dükanının arxasında Çar meydanının məscididir»(1779-cu il, VII-nin sənədi, Gürcüstan İncəsənət Fondu. Qd 842)

Hazırda Tiflisdə Nəbatat bağına gedən yolda müsəlmanların yeganə məscidi –Tiflis Cümə Məscidi fəaliyyətdədir. Tikili kərpiclə inşa olunub, neoqot və islam ünsürləri ilə bəzədilib, Kərpiclə inşa olunan məscidin bayır tərəfdən suvaqlanmayan divarları tağlı pəncərələrə bölünüb. İstisna haldır ki, bu məscidə ibadət üçün şiə, eləcə də sünni məzhəbinə qulluq edən müsəlmanlar gəlirlər.

**Mirzə Məmmədoğlu**

# Şairlər günündə yağış

***(termoterapiya)***

Əlbəttə, hər baytarlıq diplomu olan yazıçı da, şair də ömrünün Batısınacan baytarlıq diplomu gəzdirən unudulmaz Mehmet Akif ola bilməz. Amma baytarlıq diplomu olan Mirzə Qələm gedənləri Mehmet Akifin:

*Zülmü alqışlayamam, zalımı əsla sevəməm,*
*Gələnin keyfi üçün qalxıb keçmişə söyəməm. –*

misraları ilə yola salanda elə yağış başladı ki, oralarda da, buralarda da indiyəcən belə yağış yağmamışdı.



Gedənlər Süsən-Sünbül yolunda görünməz olantək, mən Mirzə Qələmə imam Baqirin (ə) dediklərini xatırlatdım: "...əslində Allah-taala yağışı istədiyi yerə yağdırar; amma bu xalq günah əməllər edəndə bu xalq üçün təyin edilən yağış yağmaz".

O unudulmaz yağış yadımda ona görə belə yerbəyer qalıb ki, iyun ayının beşi idi və can Azərbaycanda "müsavatçı" Müşfiqin doğum günündə Şairlər günü qeyd olunurdu.

Gedənlər də elə bu 5 iyun – Şairlər gününə görə gəlmişdilər ki, bəs deməzsənmi, siz niyə Azərbaycandakı Şairlər gününü Sınıq körpünün bəri üzündə bu cür hüsnxət və hüsn-xidmət bayram edirsiniz? Sınıq körpünün bəri üzündə özümüzün bir Şairlər günümüz niyə olmasın? Özü də iyunun beşinə deyil, Filan-Fəsmanlı şair Mirzə Halaypozan Xanəxərabın dünyaya göz açdığı filan ayın füsunkar fəsman gününə niyə düşməsin ki?..

...Amma öz aramızda sizə bunları da deyim ki, Mirzə Qələmin bir qaibanə qəribəliyi də budur ki, o, hətta Şotlandiyanın Milli bayramına çevrilmiş 25 yanvarı da bayram edir: bildiyiniz kimi 25 yanvar Şotlandiyanın fəxri olan Robert Börnsün ad günüdür. Üstəlik, 15 oktyabrda qədim Roma şairi Vergilinin ad günü də, 21 martdakı Beynəlxalq Poeziya günü də Mirzə Qələmin təskinedici təqvimində yoluxucu yer alıb.

Vergili demiş... 15 oktyabrda Mirzə Halaypozan Xanəxərabın qaldırdığı qalmaqalı eşitsəydiniz, bəlkə də Əyriqarın ətəklərindən rahətülhülqum Romaya köçüb gedərdiniz. Amma təəssüf ki, bir pürxumar pritçada deyildiyitək, doğrudan da heç də bütün yollar Romaya aparmır. Müxtəsəri, Mirzə Halaypozan Xanəxərabın qatıqlanma qalmaqalının metafizik məğzi belə idi: haqq vergisi verilmiş vergili şair mən ola-ola, siz niyə mən vergiliyə yox, o Vergiliyə yuvarlaq yubiley keçirirsiniz?

...Burasını da deyim ki, Mirzə Qələm – haşa atasından, anasından! – eynən ingilislərsayağı, "Mən" sözünü həmişə böyük hərflə yazır və yenə də eynən ingilislərsayağı, öz arazbarı şair həyatında ikicə şərti əsas tutur. Yəni oturanda da, duranda da "Allahım və Mənim hüquqlarım" (fransızca: Dieu et mon drait) – deyir...

...Gedənlər hədə-qorxu gəldilər ki, bəs deməzsənmi, buralardan birbaşa Tiflisə – Mədəniyyət Nazirliyinə ştreykbrexer şikayətə gedəcəyik. Gedəcəyik ki, görək buralarda yaşaya-yaşaya , buralar vətəndaşı ola-ola Mirzə Qələm niyə şotlandiyalı Robert Börnsə Anım günü keçirir?

P. S.

***21 mart Beynəlxalq Poeziya günündən gümüşü günlər keçsə də Mirzə Qələm dünən Süsən-Sünbül yolunda ustad Şəhriyardan oxuyurdu:***

*Hələ novruzgülü var,*
*qarçiçəyi var – gələcəklər;*
*Yel-yağışda yuyunub,*
*gün səpiləndə güləcəklər...*

***...Qaldı gedənlərin Tiflis səfəri. Onlara məcazlardan ibarət cavab qaytaran olub ki, bəs deməzsənmi, dünyanın hansı nöqtəsi olursa-olsun, Şairlər günündə yağış, yoxsa qar yağacağı Nazirliyin deyil, uca Yaradanın işidir...***

**İbrahimxəlil**

# Aşıq Bilal – 80

Qardabanidə ustad sənətkar Aşıq Bilalın 80 illiyi təntənəli şəkildə qeyd olundu. Ustad sənətkarı təbrik etmək üçün Azərbaycandan, Gürcüstanın müxtəlif bölgələrindən sənətsevərlər toplaşmışdı. Müəllim Hidayət Yusubov, tədqiqatçı Mirzə Məmmədoğlu, Gürcüstan Aşıqlar Birliyinin sədri Osman Əhmədoğlu, professor Mahmud Kamaloğlu, yazıçı-publisist Elbəyi Cəlaloğlu, jurnalist Nadir Almazoğlu, şair Zahid Ələmpaşalı çıxış edərək tanınmış aşığın ömür yolu, yaradıcılığı haqqında müəyyən fikirlərini səsləndirdilər. Aşıqlardan Ziyəddin (Keşəli), İsmayıl (Qarayazı), Vəli (Qarayazı), Maksim (Azərbaycan), Xıdır (Kosalı), Məsim (Rustavi), Ayaz Bulud (Bolnisi) və başqaları öz çıxışları ilə yubiley tədbirinə xoş ovqat bəxş etdilər.

Sonda Aşıq Bilal Sadıqov çıxış edərək onun sənətinə göstərilən qayğı və diqqətə görə təşkilatçılara və toplaşanlara minnətdarlığını bildirdi, qələminə məxsus bir neçə şeirini səsləndirdi.



**Nadir Almazoğlu**

# Prezident və Baş nazir azərbaycanlıları Novruz bayramı münasibətilə təbrik etmək üçün Marneulidə oldular

(Əvvəli səh. 1-də)



Şəhərin mərkəzi küçəsində təşkil olunan bayram tədbirinə Gürcüstan prezidenti Qiorqi Marqvelaşvili, Baş nazir İrakli Qaribaşvili, nazirlər, Kvemo Kartli qubernatoru Paata Xizanişvili, Marneuli bələdiyyəsinin sədri Nəbi Abdullayev, rayonun icra başçısı Merab Topçişvili, yerli hakimiyyətin nümayəndələri və dəvətli qonaqlar da qatıldılar.

Bələdiyyəyə gələn qonaqlar mərkəzi küçədə təşkil olunmuş Kvemo Kartli bölgələrinə xas güşələri, rəssamların əl işlərini, idmançıların nömrələrini izləyərək çaya qonaq oldular. Sonra isə onlar səhnəyə çıxaraq yerli azərbaycanlıların bayramlarını təbrik etdilər.

"Siz əməksevər, bacarıqlı və bilikli xalqsınız. Sizin əməyinizi hər kəs görür və imkan daxilində, sizə dəstək olmağa çalışırlar. Siz ölkənin daha yaxşı gələcəyi üçün çalışırsınız. Bu gün yeni günlərin, enerjinin, əhval-ruhiyyənin, yazın bayramıdı. Unutmayın ki, biz yalnız bu gün deyil, ilin hər günü sizin yanınızdayıq. Biz sizə xidmət etmək üçün, birlikdə ölkəni daha da inkşaf etdirmək üçün sizinləyik. Mən sizinlə birlikdə daha xoşbəxt Gürcüstan üçün mübarizə aparıram. Bayramınız mübarək!" - deyə Gürcüstan prezidenti yerli əhaliyə müraciət etdi.



"Novruz bayramınız mübarək" - tamaşaçıları Baş nazir Qaribaşvili bu sözlərlə salamladı. "Bu gün münasibəti ilə hər birinizi təbrik edirəm. Mənim və ölkə prezidenti Qiorqi Marqvelaşvilinin bu gün sizinlə birlikdə olmağımız Gürcüstanın birliyinə zəmanətdir. Bu sizə qarşı məhəbbətimizin təsdiqidir. Bunlar ürəkdən gələn sözlərdir, ona görə də bu gün bayramınızı, yazın gəlişini, məhəbbət gününüzü təbrik edirəm. Biz bu gun sizinlə birlikdə bayram edirik. Bura Gürcüstanın çox varlı, bərəkətli bölgəsidir. Mən sizin əməksevərliyinizə valehəm və dəyər verirəm. Siz ölkəmizin fərqli bölgəsisiniz. Biz də, prezidentin dediyinə qüvvət – hər zaman yanınızda olacağıq. İstəyirik ki, daim sizin xoş və bəd gününüzü birlikdə bölüşək. Bizim ata-babalarımız ölkənin inkişafı üçün birlikdə alın təri tökürdülər. Bu gün bizim buraya gəlişimizin səbəbi də sizi daha yaxşı gələcəyimizin olacağına əmin etməkdir. Biz Gürcüstanın daha yaxşı gələcəyi üçün əlimizdən gələni edəcəyik." – deyə Baş nazir vurğuladı.

Bahar bayramı münasibəti ilə Marneuli sakinlərini qubernator Paata Xizanişvili, bələdiyyənin sədri Nəbi Abdullayev və icra başçısı Merab Topçişvili də təbrik etdilər.

Bayram tədbirində xüsusi ilə bu gün üçün Azərbaycandan dəvət olunmuş məşhur müğənni Eyyub Yaqubov iştirak edərək öz repertuarından mahnılar ifa etdi. Onunla birlikdə şənlikdə Marneulinin yerli musiqi və xoreoqraf qrupları, Cənubi Osetiyadan "Nartebi" xalq rəqs və musiqi ansamblı müxtəlif nömrələrlə çıxış etdilər.

**RegionPress**



# Dmanisidə Novruz bayramı qeyd olundu



Dmanisidə Bahar bayramı - Novruz bayramı şərəfinə düzənlənən şənlikdə Gürcüstan Barış və Vətəndaş Bərabərliyi Məsələləri üzrə dövlət naziri Paata Zakareişvili və onun Kvemo Kartli üzrə nümayəndəsi Zaur Dərğallı, Gürcüstanın Kvemo Kartli bölgəsi üzrə dövlət müvəkkili Paata Xizanişvili, Dmanisi rayon rəhbərliyi, ictimayyətin nümayəndələri iştirak etmişlər.

**RegionPress**

# "Salami" və RAMM Novruz bayramı şənliyi keçirdilər

Novruz bayramını Rustavidə yaşayan azərbaycanlılar da hər il təmtəraqla qarşılayır. Rustavi Azərbaycanlıları Mədəniyyət Mərkəzinin və "Salami" Xeyriyyə-Mədəniyyət cəmiyyətinin (cəmiyyətin sədri Maya Rəcəbovadır) üzvləri bu il də Novruz şənliyi təşkil etdi. RAMM-ın idarə heyətinin sədri Xaləddin Yolçuyev bütün qonaqları bayram münasibətilə təbrik edərək Novruz haqqında geniş məlumat verdi. Kvemo Kartli regionunun dövlət müvəkkili-qubernatoru Paata Xizanişvili, onun müavini Ramin İsmayılov və digər qonaqlar çıxış edərək bütün azərbaycanlıları bu əziz bayram münasibətilə təbrik etdilər. Gürcüstan Aşıqlar Birliyinin sədri Osman Əhmədoğlu, professor Mahmud Kamaloğlu, şair-publisist Güllü Tomarova, Azərbaycanlıların Mədəniyyət Mərkəzinin gənclər şöbəsinin rəhbəri Nərgiz Əliyeva bayramın özəlliklərinə diqqəti cəlb edərək arzu, istək və təbriklərinin çatdırdılar. Sonra Rusiyadan gəlmiş aşıq Mehdi, aşıq Bafalı, aşıq Məsim bayram şənliyinə çıxışlarıyla xüsusi ovqat bəxş etdilər.



**RegionPress**

# Novruz sülh və barışıq bayramıdır

Rustavidə şəhər meriyası və "Varlıq" mədəniyyət mərkəzinin (rəhbəri Rafiq Hümmət) birgə təşkilatçılığı ilə təntənəli mərasim keçirilmişdir. Tədbiri şəhər meriyasının əməkdaşı Bəhram İsayev açaraq iştirakçılara qədim bayram barədə ətraflı məlumat vermişdir.

Gürcüstanın Baş nazirinin köməkçisi Savalan Mirzəyev toplaşanları Novruz bayramı münasibətilə təbrik etmişdir. O demişdir ki, sülh və barışıq bayramı olan Novruzun Gürcüstanda təntənəli surətdə qeyd olunması ölkələrimizin dostluq nümunəsi və strateji tərəfdaşlıqlarının əyani təntənəsidir.

Kvemo Kartli bölgəsinin qubernatoru Paata Xizanişvili qəlblərə sevinc və fərəh gətirən yaz fəslində qədim tarixə malik Novruzun Rustavi şəhərində geniş qeyd olunmasını xalqlarımızın dostluğunun daha da dərinləşdirilməsinin təzahürü saydığını vurğulamışdır.



Rustavi şəhərinin meri David Cikia xalqlarımızın dostluğunun qədim tarixinə diqqəti çəkmiş, Novruzun Rustavidə belə təntənəli qeyd edilməsindən razı qaldığını bildirmişdir. O, demişdir ki, azərbaycanlılar etibarlı xalqdır və son dövrlər fəaliyyətimdə bunun dəfələrlə şahidi olmuşam.

Qubernator və mer iştirakçıları Azərbaycan dilində də təbrik etmişlər.

Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyinin məsul əməkdaşı Elcan İmamverdiyev səfir Azər Hüseynin xoş arzularını çatdırmış, Gürcüstanda Novruz adət ənənələrinin qorunub saxlanılmasından, bayram şənliyinin belə təntənəli şəkildə keçirilməsindən iftixar duyduğunu qeyd etmişdir.

Novruz şənliyində Gürcüstanın Barışıq və Vətəndaş Bərabərliyi üzrə Dövlət Nazirliyinin əməkdaşı Zaur Dərğallı, Azərbaycan Yazıçılar Birliyinin Gürcüstan bölməsinin rəhbəri Rafiq Hümmət, professor Mahmud Kamaloğlu, Gürcüstan Aşıqlar Birliyinin rəhbəri Osman Əhmədoğlu, şairlərdən Zərgər Musa, Tapdıq Yolçu və başqaları iştirak etmişlər.

Tədbirdə məşhur müğənni Dursun Borçalının, gənc Aşıq Məsimin, 18 nömrəli şəhər məktəb şagirdlərinin ifaları dəfələrlə alqışlarla qarşılanmışdır.

**İslam Əliyev**

# Həsənxocalıda Novruz şənliyi "Beeline" şirkətinin maliyyə dəstəyi ilə baş tutdu

Mart ayının 21-də Bolnisi rayonunun Həsənxocalı kəndində Novruz bayramı münasibətilə Novruz şənliyi keçirilib. Şənlikdə Həsənxocalı kənd natamam orta məktəbinin şagirdləri və gəncləri iştirak ediblər. Şənlik "Beeline" şirkətinin maliyyə dəstəyi ilə baş tutub. İnformasiya dəstəyi isə "Region Press"ə və AGFM-ə məxsusdur. Şənlikdə milli adət-ənənələrimiz, rəqslərimiz və musiqilərimiz nümayiş olunub. Xüsusi qayğı və diqqətə görə isə məktəbin direktoru Ramiz Məmmədəlizadəyə təşəkkür edirik.



**Xəyyam İsayev**
***Tələbə***



**Əsli Bedilli**

## Anamı axtarıram

Özüm vurub yerə-göyə,
Mən anamı axtarıram.
Mənim anam deyə-deyə,
Mən anamı axtarıram.

Azalıb ömür günlərim,
Çoxalıbdı dərdi-sərim,
Dolubdu sinə dəftərim,
Mən anamı axtarıram.

Əlini qoysun başıma,
Sığal çəksin göz-qaşıma,
Xəbər verin qardaşıma,
Mən anamı axtarıram.

Ay Əsli, olubsan nənə,
Ana axtarırsan yenə,
Tasdıqladım dönə-dönə,
Mən anamı axtarıram.

## Qayıtmaram

Gözün kimi qorusan da, baxsan da,
Altun kimi sinən üstə taxsan da,
Təzədən toy edib, xına yaxsan da,
Daha oralara qayıtmaram mən.

Gözümün önündə mən baxa-baxa,
Geyinsən əyninə vəznəli çuxa,
Sən Yusif olasan, mən də Züleyxa,
Daha oralara qayıtmaram mən.

Daşıbdı ağzımdan, tökülür vərəm,
Sən elə sandın ki, qulam, nökərəm,
Mən ki, Əsliydim, sən olsan Kərəm,
Yenə oralara qayıtmaram mən.



**Məryəm Ağaxanova**
II sinif şagirdi (Sumqayıt)

## Şəhidlərə

Küçə – qaranlıq küçə,
Daşdı torpağın üzü?
Şəhid qanıdır gecə,
Yaşdı göylərin gözü...

“Qardaş”, “qardaş” deyirəm
Bakının gecəsində.
Hər dəfə baş əyirəm,
Şəhidlər küçəsində.



**Elmira Mahalqızı**

## Çəkir

Göylərin işığı sayrışsın deyə,
Ayın da şəklini axan çay çəkir.
Könül təbiətlə yarışsın deyə,
Çağlayır, dalğalar sanki lay çəkir.

Çəkir üfüqlərin gül çələngini,
Sözün, qafiyənin, şeirin rəngini,
Sevir şairlərin söz ahəngini,
Dolğun, alagözlü bir humay çəkir.

Analar bəsləyir qızı, gəlini,
Böyük məhəbbətlə öpür əlini.
Hər kəsin dünyada öz əməlini,
Allah özü görür, haqqı-say çəkir.

Torpaq da qabarır göy qurlayanda,
Yağış sevqisini pıçıldayanda.
Çaylar sevincindən uğuldayanda,
Bağlar bəhərlənir, tanrı pay çəkir.

Sevgiylə yaradıb yaradan bizi,
Günəşi,buludu,ayı,ulduzu.
Çəmənin çiçəyi,qayanın gözü,
Könüllər mülkünə bir saray çəkir.

Həyat gözəlliyi yaradanındı,
Ömür yarı qürub, yarı danındı.
Mahalqızı eşqi Yaradanındı,
Dönüb nağmələrə, o lay-lay çəkir.

## Ayrılığın sonu yoxmuş

Getmə – dedim, ayrılmayaq,
Ayrılığın sonu yoxmuş.
Gözə alma sonsuzluğu,
Dönəcəyə yolu yoxmuş.

Ağac bir də yarpaqlayar,
Çəmən bir də çiçəkləyər.
Körpələr gələr dünyaya,
Ayaq açar, iməkləyər.

Səni bir daha dünyaya
Gətirəmməz qoca anam.
Yüyrüyünü yelləyəmməz,
Deyə bilməz “laylay, balam”.

Tək gəldin, tək getdin, qardaş.
Ürəkdə arzular qaldı.
Neçə-neçə diləklərin,
Daha nələr, nələr qaldı.

Ağlım qələmi saxladı,
Daha yazma, bəsdir – dedi.
Onsuz da əllərin boşdu,
Zəhmətin əbəsdi dedi.



**Nigar Allahverdiyeva**
müəllimə

## Dur gəl

Bu yaz gec əridi yolların qarı,
Bu qar ayrı saldı çox yardan yarı.
Borçalı – bineydən sevgi diyarı...
Dur gəl bizə doğru, ay qadan alım!

Ala gözlərinə vurulmuşam mən,
Sənin gözlərində durulmuşam mən.
Bu qarlı yollarda yorulmuşam mən,
Dur gəl bizə doğru, ay qadan alım!

Əsdi Novruz yeli, uçar qəfəslər,
İsinər bu yazda, qızar nəfəslər.
Nigar gecə-gündüz hey səni səslər,
Dur gəl bizə doğru, ay qadan alım!

**Aidə Veysəlova**

## Sənsiz qaldıq, ay ata!

*(Atama ithaf edirəm)*

Ölümünə yer də, göy də ağladı,
Gülən gözlərimiz kədər bağladı.
Yoxluğun ürəyimizə ocaq qaladı,
Sənliykən sənsiz qaldıq, ay ata!

Əllərin əlimə dəyməz ki, daha,
Gözlərin gözümə baxmaz ki, daha.
Səsini heç zaman duymaram daha,
Sənliykən sənsiz qaldıq, ay ata!

Tər bənövşələrin boynunu büküb,
Anamın gözləri yola dikilib,
İstəkli oğlun yaman üzülüb,
Sənliykən sənsiz qaldıq, ay ata!

Yenə yuxuma qonaq gəlsən nə olar,
Üzür məni bu intizar, bu kədər.
Yuxumdasa varlığın təsəllim olar,
Sənliykən sənsiz qaldıq, ay ata!

Dayaq idin arxamızda bir ağac kimi,
İşıq idin qəlbimizdə bir çıraq kimi,
Gözümüzün nuruydun, parıldayan ulduz kimi,
Sənliykən sənsiz qaldıq, ay ata!

## Sənsiz

*(Həyat yoldaşım Veysalov Vahid Nadir oğlunun ruhuna ithaf edirəm)*

Sənsiz bu dünyanın yükü çiynimdə,
Sənsiz bu dünyanın dərdi içimdə,
Sənsiz bir qəpikdir dünya gözümdə,
Sənsiz sağalmayan bir xəstəyəm mən,
Sən yoxsan elə bil mən də ölmüşəm.

Sənsiz mənim üçün heçdi bu həyat,
Sən yoxsan elə bil boşdu bu həyat,
Elə bil səninlə köçdü bu həyat,
Sənsiz heç bilmirəm mən özüm kiməm,
Bilmirəm xəstəyəm, yoxsa həkiməm.

Sənsiz yediyimin dadı-duzu yox,
Sənsiz ömür yolumun bahar-yazı yox,
Bu Küskün Əsmərin gülər üzü yox,
Səssiz, sönük olub otağım sənsiz,
Soyuq məzar olub yatağım sənsiz.

Sənli günüm geri dönə biləydi,
Sənsiz nə çəkdiyimi görə biləydin,
Kaş mən də səninlə ölə biləydim,
Sənsiz bu dünyada kimə lazımam,
Yaşamağa dəymir, ölümə hazıram.



**Fatma Aslan**

## Yerə mələkləri göndər, İlahi

Yerə mələkləri göndər, İlahi,
Sən uca varlığın, şeytan yollama.
Bağla qapıları, kəs yollarını,
İblis misalında insan yollama.

Qovdun yer altına, çıxdı üzünə,
Saldın ayağına, çıxdı dizinə.
Yazıq-yazıq baxdı dünya üzünə,
Riyadı, hiylədi inan, yollama.

Qoru yaxşıları, xeyirxahları,
Olsa da yanında bir günahları.
Sən özün bilirsən olacaqları,
Göstər iç üzünü, pünhan yollama.

Göstər ki, tanıyaq, biz aldanmayaq,
Pisi düz tanıyaq, yaxşı sanmayaq,
Doğru yolumuzdan aralanmayaq,
Nə nifrət, nə savaş, nə qan yollama.

Neçə əzizimi vaxtsız almısan,
Neçə yol ömrümə talan salmısan,
Dağları sinəmdə sıralamısan,
Amandı, bir daha hicran yollama.



**Küskün Əsmər**

## Tənhalıq

Tənhalıq nə yaman ağır olurmuş,
Ürəklərə dolan qəm-kədər kimi.
Tənhalıqdan insan fağır olurmuş,
Atasız-anasız körpələr kimi.

Soyuq məzar kimi üşüdür məni,
Cismimi göynədib, ruhumu dondurur,
Tənhalıq çəkənlər eşidir məni,
Tənhalıq dülgərtək ömrü yondurur.

Ev-eşik necə də sönük olurmuş,
Həyət-baca sanki sükut içində.
Elə bil bu anda cansız bir cəsəd
Dünyaya göz yumub tabut içində.

Nə qapını açıb bir girən olur,
Nə də söz soruşub dindirən olur.
Nə küskün könlümü güldürən olur,
Bu dolub boşalan həyat içində.

Tənhalıq nə yaman ağır olurmuş,
Ürəklərdə dolan qəm-kədər kimi.
Tənhalıqdan insan fağır olurmuş,
Atasız-anasız körpələr kimi.

Azərbaycanlıların Mədəniyyət Mərkəzi
Region PRESS
İctimai qəzet
№06 (181) 27.03.2015
Qəzet 2008-ci il martın 15-dən çıxır

*Əxlaqı gözəl olanın sevəni də çox olar.*
**Həzrəti Əli (ə)**

# Ən tez qocalan 5 orqan

***Ən tez qocalan 5 orqan və onların fəaliyyətinin pozulmasının qarşısını almaq üçün faydalı məsləhətləri təqdim edirik:***

**Beyin** – 50 yaşa çatdıqda beyinin çəkisində azalmalar başlayır və hər 10 ildən bir bu göstərici 2-3% artır. Bununla əlaqədar yeni məlumat öyrənmək bacarığı getdikcə zəifləyir. Həmin yaş dövründədək öyrənilən biliklər isə öz fəallığını qoruyub saxlayır. Beyinin qocalmasının qarşısını almaq üçün həftədə ən azı 2 dəfə balıq yeməli, siqaret, spirtli içkidən uzaq durmalısınız. Zehni inkişaf etdirən əyləncələr – krossvord həll etmək, gündəlik xəbərləri oxumaq beyinin sağlamlığı üçün faydalıdır.



**Ürək** – 40 yaşdan etibarən ürək qocalır və çəkisi bir qədər artır. Arterial damarın dəqiqədə ötürdüyü qanın miqdarında getdikcə azalma müşahidə olunur. Bu azalma hər il 1% artır. Ürəyinizi qorumaq üçün siqaretdən, yağlı yeməklərdən uzaq durmaq lazımdır. Potaşla zəngin olan minerallardan ibarət qidalar qəbul edilməlidir: banan, ərik, kartof, sarımsaq və s. Hər gün açıq havada gəzmək faydalıdır.

**Göz** – 40 yaşdan sonra yaxınlıqdakı məsafəni uzaq görməyə başlayırıq. Bu yaşdan etibarən göz almasının sərtliyi artır. Normal göz 40 yaşda +1, 50 yaşda +2, 60 yaşda +3 nömrəli yaxın məsafələr üçün eynəyə ehtiyac duyur. Göz sağlamlığını qorumaq üçün C və E vitaminləri ilə zəngin olan qidalar qəbul edilməlidir.

**Qulaq** – 30 yaşdan sonra eşitmə siniri zəifləyir. Beyindəki eşitmə mərkəzi yaşla əlaqədar olaraq fəaliyyətində zəifləyir. Bu cür problemlərin qarşısını almaq üçün yüksək səslə musiqi dinləmək olmaz.

**Sümüklər** – müəyyən yaşdan sonra qadınlarda menstruasiya prosesinin dayanması və D vitaminin azalması səbəbindən sümüklərdə ərimələr başlayır. Bunun qarşsını almaq üçün bol-bol günəş enerjisi qəbul etmək lazımdır.

# M.Platini yenidən UEFA-nın prezidenti seçildi




Qurumun rəsmi saytının verdiyi məlumata görə, bu barədə qərar UEFA-nın bu günlərdə keçirilən konqresində qəbul edilib.

Qərara əsasən Mişel Platini növbəti 4 il müddətində UEFA-nın prezidenti vəzifəsini icra edəcək. Ardıcıl üçüncü dəfə UEFA prezidenti seçilən Platini onu dəstəkləyən hər kəsə təşəkkür edib.

Qeyd edək ki, Platini 2007-ci ildə Düsseldorfda keçirilən konqresdə UEFA-nın prezidenti seçilmişdi.

# Yeni nəşr

Gürcüstan Azərbaycanlı Jurnalistlər Birliyinin sədri şair-publisist Nizami Məmmədzadənin bu günlərdə işıq üzü görmüş "Çələbilər" (poema) kitabı tarixi bir mövzuya - o vaxtkı Dəmirçihasannı bölgəsində Lecbəddin və Kosalı kəndləri arasındakı Damğaçı düzündə yerləşən Çələbilər qəbiristanlığına həsr olunmuşdur.




Nizami Məmmədzadənin bu poeması qəbiristanlıqda uyuyan şəxslərin ruhuna ehtiram əlaməti olmaqla yanaşı, çox təəssüf ki, indiyə qədər tarixi tədqiq edilməmiş qəbiristanlığın keçmişinə və bu gününə qayğı və diqqətin olmamasına poetik narahatlığın ifadəsidir.

Kitabda şairin müxtəlif illərdə qələmə aldığı şeirləri də toplanmışdır.

**RegionPress**

# 1200 illik vikinq üzüyündə "Allah" yazısı

***İsveçdə aparılan arxeoloji qazıntılar zamanı IX əsrə aid qadın məzarından tapılmış üzük Skandinaviya və İslam dünyası arasında yaxın əlaqələrin olduğunu sübut edir.***



1800-cü illərin sonlarında “Birka” adı ilə tanınan vikinq ticarət mərkəzində aparılmış qazıntılar zamanı gümüş üzük tapılmışdı. Üzərində ərəb hərfləri ilə “Allah üçün” və ya “Allaha” yazılan üzüyün ticarət malı olaraq satıldığı və bölgəyə bu yolla gətirildiyi zənn edilir.

Skandinaviya və Yaxın Şərq regionu arasında ən erkən ticarət əlaqələri 3400 il əvvələ gedib çıxır. Əsasən Misir və Mesopotamiyadan gətirilən ekzotik məhsullarla ticarət edildiyi güman edilir.

# “Gecə naləsi” adlı şəbih tamaşası səhnələşdirildi

Əhli-Beyt (ə) Cəmiyyəti və həmin cəmiyyətin nəzdində fəaliyyət göstərən Əhli-Beyt (ə) Aşiqləri Forumu və “Zeynəb” Qadınlar Birliyinin birgə təşkilatçılığı ilə Marneuli Mədəniyyət Evində Hz. Fatimə (s.ə)-nin şəhadəti münasibəti ilə “Gecə naləsi” adlı şəbih tamaşası səhnələşdirildi. “Cəfəri-Muminun” və “Kövsər” İlahi Nəğmələr Qruplarının səhnələşdirdiyi şəbihdə Hz. Fatimə (s.ə)-nin iztirabları dilə gətirildi, şəhadəti və dəfni canlandırıldı.




## 1 APREL Beynəlxalq Gülüş günüdür




*Parkda ağacın yanında dayanmış dilənçi oğlanla qızı görüb deyir:*

*-Sən o gözəl qızın canı, mənə 50 qəpik ver.*

*Oğlan cəld dillənir:*

*- Hanı gözəl? Göstər, 1 manat verim.*

***

*- Bax, düzünü de, ev tapşırığını kim eləyib?*

*- Müəllim, vallah-billah xəbərim yoxdu, axşam tez yatmışam!*

## Başsağlığı

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi Marneuli rayonundak Alget kənd sakinləri ər-arvad **Vəli və Güllüzar Ramazanovların** vəfatından kədərləndiyini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

---

Marneuli rayonundakı Keşəli ümumi məktəbinin pedaqoji kollektivi məktəbin müəllimi ***Eldar Vəliyevə*** qardaşı **Emin Xoca oğlunun** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

*Təsisçi:* *Azərbaycanlıların Mədəniyyət Mərkəzi (AMM)*
*AMM-in sədri:* **Fazil HƏSƏNOV**

*Redaktor:* **Binnət ƏLİOĞLU**
*Məsul katib:* **İbrahimxəlil**
*Texniki redaktor:* **Əkrəm QƏHRƏMANOV**
*Kompyuter tərtibatçısı:* **Bahar MƏMMƏDOVA**

*Redaksiyanın ünvanı:*
Marneuli şəhəri, Çolokaşvili küç. 3
İndeks: 3000 Tel.: (+995 357) 22 29 29
Faks: (+995 357) 22 57 88
E-mail: regionpress@yahoo.com
Qəzetimizi Facebook səhifəmizdə də oxuya bilərsiniz:
https://www.facebook.com/regionpress.AMM

**Qeydiyyat şəhadətnaməsi:**
**09.09.2004. №43/5 z—9**

Fakta və ifadə olunan fikrə görə məsuliyyəti müəlliflər daşıyır.
Qəzet pulsuz yayımlanır.
**TİRAJ: 5000**